RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 228 (9973) 24 oktyabr 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# AZƏRBAYCANA ŞƏRƏF GƏTİRƏN 1088 GÜN

Müzəffər Ali Baş Komandan İlham Əliyev sülh danışıqlarını davam etdirsə də, heç zaman Azərbaycan xalqının işğalla barışmayacağını və lazım gələrsə, hərbi yolla ərazi bütövlüyünə nail olacağını söyləyirdi.

Belə də oldu!

Havadarlarına güvənən düşmən məsələni bitmiş sayır və lovğalanaraq özünü Qarabağın sahibi kimi aparırdı.

Lakin bu, onun xam xəyalı idi!

İlham Əliyevin yetişdirdiyi gənclərdən yaradılan və ən müasir silahlarla silahlandırılan yeni ordu hələ öz sözünü deməmişdi!

Zaman çatdı və Azərbaycan xalqının şərəf, milli qürur müharibəsi başladı!

Zəfər müharibəsi və onun nəticələri ilə bağlı məqamlara Müzəffər Ali Baş Komandan İlham Əliyev dəfələrlə müxtəlif çıxışlarında toxunmuşdur.

Belə maraqlı çıxışlarından birini isə Xankəndidə 20 sentyabr 2024-cü ildə Qarabağ Universitetinin açılışı zamanı etmişdir.

Gərəkli məqamlarda həmin çıxışdan iqtibaslar gətirəcəyik.

27 sentyabr 2020-ci ildə başlayan və 90 mindən çox gənc azərbaycanlının iştirak etdiyi II Qarabağ müharibəsi ilk günlərdən qeyri-adiliyi ilə diqqət çəkirdi.

Hərbi əməliyyatların gedişində ən müasir silahlardan istifadə olunur, yeni taktika və strategiya tətbiq edilirdi.

Heç də təsadüfi deyil ki, bu müharibə ümumilikdə hərbi ekspertlər tərəfindən nümunəvi müharibə sayılaraq "XXI əsrin yeni tipli müharibəsi" adını qazandı və buradakı bir çox döyüş əməliyyatı dünyanın bir sıra hərbi məktəblərində öyrənilməyə başlandı.

Yeni silah-sursatlarla yanaşı, bu müharibədə əsgər və zabitlərin mənəvi durumu, döyüş əzmi də yeni idi və son nəticədə öz əksini tapdı!

Müharibənin baş sərkərdəsi və baş qəhrəmanı İlham Əliyevin dediklərindən:

"Bildiyiniz kimi, 44 gün ərzində şanlı ordumuz hər gün irəli gedirdi, hər gün yaşayış məntəqələri işğalçılardan azad edilirdi və bildiyimə görə, dünya hərb tarixində buna oxşar hərbi əməliyyatlar olmamışdır. Bir gün belə geriyə addım atmamışıq, hər gün bir neçə kənd, bir neçə qəsəbə, şəhər azad edilirdi. Bir nəfər də olsun döyüş meydanını tərk etməmişdir. Amma Ermənistanın rəsmi nümayəndələrinin özlərinin etirafına görə, Ermənistan ordusunda 12 mindən çox fərari olmuşdur. Bu, nəyi göstərir? Əlbəttə ki, xalqımızın yüksək mənəvi keyfiyyətlərini göstərir. Bununla bərabər, onu göstərir ki, sinəsini qabağa verən gənclər o qədər vətənpərvərlik ruhunda tərbiyə olunmuşdur ki, onlar üçün Vətən torpaqlarını azad etmək ən şərəfli missiya olmuşdur".

Müzəffər Ali Baş Komandanımız qələbənin ən mühüm şərtlərindən birinin məhz bu amil olduğunu göstərir:

"Təbii ki, peşəkarlıq, qəhrəmanlıq, texniki təchizat - bütün bunlar da vacib amillərdir. Ancaq mənəvi üstünlük olmasa, milli düşüncə olmasa, heç bir ən güclü ordu heç vaxt heç bir qələbə qazana bilməz".

Ordumuzun qəhrəmanlıqla, yüksək peşəkarlıqla döyüşməsi heç də təsadüfi deyildi.

Çünki Azərbaycan xalqı da, onun əsgər və zabit balaları da nə işğalla, nə də dünyanın Qarabağ münaqişəsi ilə bağlı yol verdiyi ədalətsizliklərlə barışdılar.

Hərçənd ki, ermənisayaq düşünənlər belə hesab edirdilər ki, sülh danışıqlarını uzatdıqca Qarabağı görməyən yeni nəsil gələcək və onlar torpaq uğrunda döyüşməyəcəklər!

Faktlar isə tam əksini göstərdi!

Vətən müharibəsi və antiterror əməliyyatı keçirərkən 3200-dən çox qəhrəman əsgər və zabitimiz şəhadət zirvəsinə ucaldı!

Heç bir qurum və təşkilatın Azərbaycan xalqını işğalla barışdırmaq cəhdi isə heç zaman baş tutmadı.

5

# Azərbaycan ilə Macarıstan arasında əməkdaşlıq gündən-günə dərinləşir



## Macarıstanın Baş naziri zati-aliləri cənab Viktor Orbana

Hörmətli cənab Baş nazir!

Macarıstanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Dost ölkə və strateji tərəfdaşımız olan Macarıstanla dövlətlərarası əlaqələrimizin bugünkü səviyyəsi məmnunluq doğurur. Şübhəsiz ki, qarşılıqlı səfərlər, müntəzəm təmaslar, sıx əməkdaşlığımız bu münasibətlərin daha sürətlə inkişafına və möhkəmlənməsinə şərait yaradır.

Hazırda ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi çox genişdir. Sevindirici haldır ki, Azərbaycan ilə Macarıstan arasında əməkdaşlıq gündən-günə dərinləşir, enerji sahəsində səmərəli tərəfdaşlıq münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Siyasi dialoqumuzun intensivliyi bütün sahələrdə qarşılıqlı fəaliyyətimizin yeni məzmunla zənginləşməsində mühüm rol oynayır.

Beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyətimizi ayrıca qeyd etmək istərdim. Bu il ərzində mənim Budapeştdə, Sizin isə Qəbələdə təşkilatın zirvə görüşlərində iştirakımız xalqlarımız və dövlətlərimiz arasında birliyin və həmrəyliyin daha da möhkəmlənməsinə, çoxtərəfli müstəvidə əlaqələrimizin genişlənməsinə verdiyimiz əhəmiyyətin göstəricisidir.

Əminəm ki, Azərbaycan-Macarıstan dostluq münasibətlərinin və strateji tərəfdaşlığının xalqlarımızın iradəsinə uyğun olaraq daha da gücləndirilməsi və dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dövləti fəaliyyətinizdə uğurlar, dost Macarıstan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 oktyabr 2025-ci il*

# İqtisadi azadlıq dövlət suverenliyinin əsas göstəricilərindən biridir

Azərbaycanın enerji sektoru, neft, qaz, alternativ enerji yalnız ixrac potensialı deyil, həm də geoiqtisadi müstəqilliyin nüvəsini təşkil edir. Enerji resurslarını sərbəst idarə etmək, gəlirləri müstəqil bölüşdürmək, tərəfdaş seçmək bunların hamısı iqtisadi azadlığın ifadəsidir. Eyni zamanda bu həm də məsuliyyət azadlığıdır. Resurslardan düzgün istifadə, bərpaolunan enerjiyə keçid, enerji səmərəliliyinin artırılması, bütün bunlar iqtisadi azadlığın etik ölçüsüdür. Bu baxımdan ekoloji azadlığa iqtisadi azadlığın təbii davamı kimi baxmaq olar.

Azərbaycanın "yaşıl enerji" siyasəti, külək, günəş, hidro potensialı iqtisadi azadlıqları gələcəyə yönəldən strateji düşüncənin nəticəsidir.

Konstitusiya iqtisadi azadlığın canlı çərçivəsini təmin edir. Müstəqillik dövrünün ən əhəmiyyətli nailiyyəti iqtisadi azadlığın Konstitusiyanın ruhuna cevrilməsidir.

Azərbaycanın suverenliyi yalnız sərhədlərin qorunması ilə məhdudlaşmır, onun əsas dayağı daxildə azad iqtisadi mühitin formalaşmasıdır.

6

# Etimada və sülhə doğru daha bir addım

Artıq Azərbaycan və Ermənistan arasında etimad, sülh, barışıq meyilləri daha güclüdür. Vətəndaş cəmiyyətləri arasında yaxınlaşma məqsədilə ilk addımlar atılmaqdadır. Bu günlər Azərbaycanın bir qrup qeyri-hökumət təşkilatı nümayəndələri Ermənistana səfər etmişlər. Bu, iki ölkə arasında aparılan danışıqların yalnız siyasi müstəvidə deyil, həm də ictimai səviyyədə dəstəklənməsinin əyani göstəricisidir. Yaxınlaşmada, barışıqda diqqətçəkən məqamlardan biri iki ölkə arasında etimad quruculuğu proseslərindən Qərb institutlarının kənarda qalmasıdır. Bu, mühüm amildir. Çünki uzun illər kənar qüvvələr, o cümlədən Qərb bu sahədə təşəbbüsü öz əlində saxlayaraq danışıqlarda, görüşlərdə öz iradəsini və tələblərini diktə edirdi. Amma indi, göründüyü kimi, Azərbaycan və Ermənistan heç bir kənar müdaxilə, vasitəçi, köməkçi olmadan etimad quruculuğu prosesini müstəqil şəkildə həyata keçirir. Heç bir ölkənin vasitəçiliyindən istifadə etməyə ehtiyac görmürlər.

7

# 44 günlük Vətən müharibəsi



# Düz 5 il əvvəl həmin gün

8

## "Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 133) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 3.2-1-cibənd əlavə edilsin:

"3.2-1. Agentliyin nizamnamə fondu bu Fərmanın 1-ci hissəsində qeyd edilən qurumlar üçün cari ilin dövlət büdcəsində nəzərdə tutulmuş və həmin qurumların öhdəliklərinin tam icra olunduğu tarixədək istifadə olunmamış vəsait, habelə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin mövcud nizamnamə fondu və bölüşdürülməmiş mənfəəti hesabına formalaşdırılır;";

1.2. 5.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.4. bu Fərmanın 3.2-1-ci bəndi nəzərə alınmaqla, 2026-cı ildən başlayaraq Agentliyin saxlanılması xərclərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində ayrıca sətirlə vəsait nəzərdə tutulması ilə bağlı tədbirlər görsün;".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2025-ci il*

## "Dərman vasitəsinin pozitiv siyahıya daxil edilməsi qaydası və meyarları, habelə həmin siyahıdan çıxarılması əsasları"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 313** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 74-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 255 nömrəli Fərmanının 2.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dərman vasitəsinin pozitiv siyahıya daxil edilməsi qaydası və meyarları, habelə həmin siyahıdan çıxarılması əsasları" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Tibb müəssisələrində, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normalarının təsdiq edilməsi və "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 314** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 217-VIIQD nömrəli Qanununun tətbiqi və "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 170 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 437 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Tibb müəssisələrində şəxslərin orta sutkalıq qida normaları" təsdiq edilsin *(1 nömrəli əlavə)*.

2. "Təhsil müəssisələrində şəxslərin qida normaları" təsdiq edilsin *(2 nömrəli əlavə)*.

3. "Sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normaları" təsdiq edilsin *(3 nömrəli əlavə)*.

4. "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 78, № 5 (II kitab), maddə 618, № 9, maddə 1067) ləğv edilsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərarın 1-3-cü hissələri nəzərə alınmaqla, müvafiq müəssisələrin cari ildə fəaliyyətinin təşkili üçün zəruri maliyyələşməni təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 noyabr tarixli 174 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi, dövriyyəsi və onlardan hazırlanmış məhsulların daşınması zamanı hüquqi şəxslər, habelə qiymətli metallar və qiymətli daşlarla əməliyyatlar həyata keçirən fərdi sahibkarlar tərəfindən onların mühafizəsinin həyata keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 315** **Bakı şəhəri, 22 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə Azərbaycan Respublikasının qoşulması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 fevral tarixli 500 nömrəli Sərəncamının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 noyabr tarixli 174 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1176 (Cild I) ilə təsdiq edilmiş "Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi, dövriyyəsi və onlardan hazırlanmış məhsulların daşınması zamanı hüquqi şəxslər, habelə qiymətli metallar və qiymətli daşlarla əməliyyatlar həyata keçirən fərdi sahibkarlar tərəfindən onların mühafizəsinin həyata keçirilməsi Qaydaları"na aşağıdakı məzmunda 11-ci və 12-ci hissələr əlavə edilsin:

"11. Emal edilməmiş almazın idxal və ixracı zamanı emal edilməmiş almazlar kənar müdaxilədən qoruyan və müdaxilə edildikdən sonra ilkin formaya qayıtmasını istisna edən konstruktiv quruluşa malik təhlükəsiz bağlamalarda daşınmalı, bağlamalara müvafiq eyniləşdirmə vasitələri (plomblar, möhürlər, ştamplar və s.) tətbiq olunmalıdır.

12. Emal edilməmiş almazın idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi zamanı mühafizənin təşkili Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin silahlı ekipajı tərəfindən ödənişsiz qaydada həyata keçirilir.".

2. Bu Qərar Azərbaycan Respublikasının "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulduğu gündən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Qaz təchizatı haqqında", "Dövlət rüsumu haqqında", "İxrac nəzarəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında", "Elektroenergetika haqqında" və "Energetika haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 317 nömrəli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 316** **Bakı şəhəri, 22 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında", "Dövlət rüsumu haqqında", "İxrac nəzarəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında", "Elektroenergetika haqqında" və "Energetika haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 317 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 iyun tarixli 98 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 382 (Cild I) ilə təsdiq edilmiş "Düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumunun qaytarılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1-ci və 3.2-ci bəndlərdə "20" rəqəmləri "10" rəqəmləri ilə əvəz edilsin;

1.2. 4.2-ci bənddə "7" rəqəmi "4" rəqəmi ilə əvəz edilsin;

1.3. 5.3-cü bənddə "7" rəqəmi "3" rəqəmi ilə əvəz edilsin;

1.4. 6.2-ci bənddə "2" rəqəmi "1" rəqəmi ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 avqust tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 662 (Cild I); 2025, № 2, maddə 196) ilə təsdiq edilmiş "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları"nın 1.1-1-ci bəndinə "qaimə-fakturaya" sözlərindən sonra ", Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)" informasiya sistemi tərəfindən təqdim edilən "e-bildiriş" və "e-bildiriş"in tətbiqi ilə bağlı dövlət rüsumu üzrə mədaxil qəbzinə" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1230 (Cild I); 2024, № 1, maddə 116, № 2, maddə 208, № 5 (II kitab), maddə 612; 2025, № 4 (II kitab), maddə 406, № 5, maddə 520) ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xüsusi icazənin verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.3-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İcazənin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.";

3.2. 2.3-cü bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Təqdim olunmuş ərizələrə (sifarişlərə) qeydiyyata alındığı tarixdən etibarən 15 gündən gec olmayaraq baxılır, çatışmazlıqlar (bu Qaydaların 2.2-1-ci bəndinin tələbləri nəzərə alınmaqla) və ya imtina üçün əsas olmadıqda, icazənin verilməsi üçün dövlət rüsumunu ödəməsi vəzifəsi barədə şifahi və ya yazılı formada sifarişçiyə məlumat verilir. Sifarişçi tərəfindən məlumat alındığı tarixdən 5 (beş) iş günü müddətində dövlət rüsumu ödənilir və ödənişi təsdiq edən sənəd müvafiq dövlət orqanına təqdim edilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edildikdən sonra icazə 2 (iki) iş günündən gec olmayaraq sifarişçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Qaydaların 2.3-cü bəndinin birinci abzasının ikinci cümləsində nəzərdə tutulmuş müddətdə müvafiq dövlət orqanına təqdim edilmədikdə, müvafiq dövlət orqanı tərəfindən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 26.2-ci maddəsində göstərilmiş tədbirlər görülür.";

3.3. 6.3.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6.3.7-ci yarımbənd əlavə edilsin:

"6.3.7. dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Qaydaların 2.3-cü bəndində nəzərdə tutulan müddətdə müvafiq dövlət orqanına təqdim edilmədikdə.".

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 30 oktyabr tarixli 318 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1235 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Rüsumsuz ticarət mağazalarının yaradılması və onların fəaliyyətinin tənzimlənməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndin ikinci və üçüncü cümlələri üçüncü və dördüncü cümlələri hesab edilsin və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İcazənin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.";

4.2. 2.3-cü bənd üzrə:

4.2.1. birinci cümlədə "icazə verilir" sözləri "icazənin verilməsi üçün dövlət rüsumunu ödəməsi vəzifəsi barədə şifahi və ya yazılı formada ərizəçiyə məlumat verilir" sözləri ilə əvəz edilsin;

4.2.2. ikinci və üçüncü cümlələr beşinci və altıncı cümlələr hesab edilsin və aşağıdakı məzmunda ikinci - dördüncü cümlələr əlavə edilsin:

"Ərizəçi tərəfindən məlumat alındığı tarixdən 5 (beş) iş günü müddətində dövlət rüsumu ödənilir və ödənişi təsdiq edən sənəd Komitəyə təqdim edilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edildikdən sonra icazə 2 (iki) iş günündən gec olmayaraq ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Qaydaların 2.3-cü bəndinin ikinci cümləsində nəzərdə tutulmuş müddətdə Komitəyə təqdim edilmədikdə, Komitə tərəfindən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 26.2-ci maddəsində göstərilmiş tədbirlər görülür.";

4.3. 3.4.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.4.6-cı yarımbənd əlavə edilsin:

"3.4.6. dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Qaydaların 2.3-cü bəndində nəzərdə tutulan müddətdə Komitəyə təqdim edilmədikdə.".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 257 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 888 (Cild I); 2024, № 9, maddə 1090) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Texnoloji biznes inkubatoru rezidentlərinin qeydiyyatının, həmçinin texnologiyalar parkı rezidentlərinin və texnoloji biznes inkubatoru rezidentlərinin reyestrinin aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İnkubatorun qeydiyyat şəhadətnaməsinin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.";

5.2. 2.11-ci bəndin birinci cümləsindən "və inkubatorun qeydiyyat şəhadətnaməsini ərizəçiyə təqdim edir" sözləri çıxarılsın;

5.3. aşağıdakı məzmunda 2.11-1-ci və 2.11-2-ci bəndlər əlavə edilsin:

"2.11-1. İdarəedici təşkilat inkubatorun qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumunu ödəmək vəzifəsi barədə 2 (iki) iş günü müddətində ərizəçiyə şifahi və ya yazılı formada məlumat verir. Ərizəçi tərəfindən məlumat alındığı tarixdən 5 (beş) iş günü müddətində inkubatorun qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumu ödənilir və ödənişi təsdiq edən sənəd idarəedici təşkilata təqdim edilir.

2.11-2. Ərizəçi tərəfindən dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edildikdən sonra inkubatorun qeydiyyat şəhadətnaməsi 2 (iki) iş günündən gec olmayaraq ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Qaydanın 2.11-1-ci bəndində nəzərdə tutulan müddətdə təqdim edilmədikdə, idarəedici təşkilat tərəfindən inkubatorun qeydiyyat şəhadətnaməsi ləğv edilir və bu barədə məlumat 2 (iki) iş günü müddətində ərizəçiyə göndərilir.".

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 311 (Cild I); 2024, № 3, maddə 302, № 7, maddə 930) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının və məcburi nişanlamanın hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 6.2.3-cü və 6.5.3-cü yarımbəndlər ləğv edilsin;

6.2. 6.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.7. Xidmət sifarişçinin təqdim etdiyi müraciətə 3 (üç) iş günü müddətində baxır, bu Qaydaların 6.2-ci və 6.5-ci bəndlərinin tələbləri pozulduqda həmin müddət ərzində sifarişdən imtina edilməsi barədə qərar qəbul edir və bu barədə 2 (iki) iş günü müddətində Sistem vasitəsilə sifarişçiyə məlumat verir.";

6.3. 6.7-1-6.7-3-cü bəndlər 6.7-2-6.7-4-cü bəndlər hesab edilsin və aşağıdakı məzmunda 6.7-1-ci bənd əlavə edilsin:

"6.7-1. Sifarişçi tərəfindən bu Qaydaların 6.2-ci və 6.5-ci bəndlərinin tələbləri təmin olunduqda, Xidmət sifarişçi tərəfindən müvafiq olaraq markaların sayına və ya müsadirə olunmuş mallara tətbiq edilən aksiz markalarının sayına uyğun olaraq dövlət rüsumunun ödənilməsi üçün müraciətə baxılma müddətində "e-bildiriş" tərtib edir və Sistem vasitəsilə dövlət rüsumu ilə yanaşı, həmçinin "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 4.3-3-cü maddəsinə əsasən xidmət haqqını ödəmək barədə sifarişçiyə məlumat verir.";

6.4. 6.7-2-ci bəndə "Sistem vasitəsilə" sözlərindən sonra "bu Qaydaların 6.7-1-ci bəndində qeyd edilən məlumatla yanaşı," sözləri əlavə edilsin;

6.5. 6.7-3-cü bənddə "aksiz bu Qaydaların 6.7-1-ci bəndinə" sözləri "bu Qaydaların 6.7-1-ci və 6.7-2-ci bəndlərinə" sözləri ilə əvəz edilsin və həmin bəndə "ödənilir" sözündən əvvəl "dövlət rüsumu və xidmət haqqı, bu Qaydaların 6.7-2-ci bəndinə münasibətdə həm də aksiz" sözləri əlavə edilsin;

6.6. 6.7-4-cü bənddə "2.1.5-2.1.9-cu yarımbəndlərində qeyd edilən mallara tətbiq olunan məcburi nişanlanmanın alınması üçün aksizin" sözləri "6.7-3-cü bəndində nəzərdə tutulan ödənişlərin" sözləri ilə əvəz edilsin;

6.7. aşağıdakı məzmunda 6.7-5-ci bənd əlavə edilsin:

"6.7-5. Bu Qaydaların 6.7-1-6.7-4-cü bəndlərinin tələbləri pozulduqda Xidmət markaların verilməsindən imtina edilməsi barədə qərar qəbul edir və bu barədə 2 (iki) iş günü müddətində Sistem vasitəsilə sifarişçiyə məlumat verir.";

6.8. 6.8-ci bəndin birinci cümləsi çıxarılsın və həmin bəndin ikinci cümləsində "bəndinə" sözü "və 6.7-5-ci bəndlərinə" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyun tarixli 314 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 733 (Cild I) ilə təsdiq edilmiş "Qapalı paylayıcı şəbəkələrin fəaliyyət Qaydaları"nın 3.1-ci bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İcazənin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.".

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyun tarixli 315 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 734 (Cild I) ilə təsdiq edilmiş "Elektrik şəbəkəsinə dair Qaydalar"ın 154.11-ci bəndində "istismarına" sözü "istismara buraxılmasına" sözləri ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İcazənin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Xudat şəhərinin 2042-ci ilədək inkişafına dair Baş planı”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 302** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Xudat şəhərinin 2042-ci ilədək inkişafına dair Baş planı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Ölkə səviyyəsində informasiya infrastrukturunun rəqəmsallaşma səviyyəsinin diaqnostikasının həyata keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 303** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanının 3.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ölkə səviyyəsində informasiya infrastrukturunun rəqəmsallaşma səviyyəsinin diaqnostikasının həyata keçirilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 iyun tarixli 299 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin Nümunəvi Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 304** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 333 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 iyun tarixli 299 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 719; 2025, № 7, maddə, 730) ilə təsdiq edilmiş "Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 3.6-cı bəndinin ikinci cümləsində "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Sosial sığorta haqqında”, “Dövlət qulluğu haqqında”, “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 110-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 332 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 305** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Sosial sığorta haqqında", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 110-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 332 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"na 3 nömrəli Əlavə - "Əmək pensiyasına qulluq stajına görə əlavələrin hesablanması üçün arayış"ın cədvəl hissəsinə "İxtisas dərəcəsinə" sözlərindən sonra "(xüsusi və ya diplomatik rütbəyə)" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 341 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1075 (Cild I); 2025, № 4 (I kitab), maddə 389) ilə təsdiq edilmiş "Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə Qaydası"nın 1.1-ci bəndində və 2.1.1-ci yarımbəndində "əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin" sözləri "orqanı əməkdaşlarının" sözləri ilə əvəz edilsin.

3. "Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 56 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 319 (Cild I); 2024, № 4, maddə 454; 2025, № 6, maddə 598) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

3.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası"nın 1.1-1.3-cü bəndlərində ismin müvafiq hallarında "əməkdaşları və inzibati-texniki xidməti həyata keçirən şəxslər" sözləri ismin müvafiq hallarında "orqanı əməkdaşları" sözləri ilə əvəz edilsin.

4. "Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən dövlət icbari şəxsi sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş dövlət icbari şəxsi sığorta haqlarının qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 62 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 325 (Cild I); 2024, № 4, maddə 454; 2025, № 6, maddə 598) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5-ci hissə aşağıdakı redaksiyada verilsin:

"5. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

4.2. həmin Qərarla təsdiq edilmiş "Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən dövlət icbari şəxsi sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş dövlət icbari şəxsi sığorta haqlarının qaytarılması Qaydası" üzrə:

4.2.1. 1.1-ci və 1.3-cü bəndlərdə "əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin" sözləri "orqanı əməkdaşlarının" sözləri ilə əvəz edilsin;

4.2.2. 7.1.4-cü yarımbənd üzrə:

4.2.2.1. "əməkdaşları və inzibati-texniki xidməti həyata keçirən şəxslər" sözləri "orqanı əməkdaşları" sözləri ilə əvəz edilsin;

4.2.2.2. 1-ci abzasda "başçısı" sözü "rəhbəri" sözü ilə əvəz edilsin;

4.2.2.3. 2-ci abzasda "vəzifə tutan şəxslər" sözləri "xidmət əməkdaşları" sözləri ilə əvəz edilsin;

4.2.2.4. 3-cü abzasda "xidməti həyata keçirən şəxslər" sözləri "xidmət əməkdaşları" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Ədliyyə orqanlarının xüsusi xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası”nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “İcra xidməti icra məmurlarının xüsusi Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2000-ci il 19 iyun tarixli 105 nömrəli və “Cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitdən istifadə Qaydası”nın təsdiq edilməsi barədə” 2021-ci il 28 aprel tarixli 120 nömrəli qərarlarının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 308** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 iyul tarixli 445 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ədliyyə orqanlarının xüsusi xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. "İcra xidməti icra məmurlarının xüsusi Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 19 iyun tarixli 105 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 470 (Cild I); 2025, № 8, maddə 800) ləğv edilsin.

3. "Cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 aprel tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 423 (Cild I); 2024, № 3, maddə 303) ləğv edilsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, ədliyyə orqanlarının xüsusi xəzinə hesabının açılması ilə eyni gündə icra xidməti icra məmurlarının xüsusi fondunda qalan vəsaitin və cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitin xəzinə hesablarında qalan hissəsinin ədliyyə orqanlarının xüsusi xəzinə hesabına köçürülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Dərman vasitələrinin beynəlxalq patentləşdirilməmiş adlarının (təsiredici maddələrin adlarının) və tibb vasitələrinin xidmətlər zərfinə daxil edilməsi və ya çıxarılması meyarları və Qaydası”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 309** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 74-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 255 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dərman vasitələrinin beynəlxalq patentləşdirilməmiş adlarının (təsiredici maddələrin adlarının) və tibb vasitələrinin xidmətlər zərfinə daxil edilməsi və ya çıxarılması meyarları və Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## “Dərman vasitələrinə əlçatanlığın artırılması və maliyyə risklərinin bölüşdürülməsi haqqında müqavilənin nümunəvi forması və bağlanılması Qaydası”nın təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 310** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 74-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 255 nömrəli Fərmanının 2.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dərman vasitələrinə əlçatanlığın artırılması və maliyyə risklərinin bölüşdürülməsi haqqında müqavilənin nümunəvi forması və bağlanılması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## “Pozitiv siyahıya daxil olan dərman vasitələrinin şərti kompensasiya məbləğinin hesablanması Qaydası”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 311** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 74-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 255 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Pozitiv siyahıya daxil olan dərman vasitələrinin şərti kompensasiya məbləğinin hesablanması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## “Ambulator şəraitdə dərman vasitələrinin buraxılması haqqında müqavilə”nin Nümunəvi forması”nın təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 312** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 74-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 255 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ambulator şəraitdə dərman vasitələrinin buraxılması haqqında müqavilə"nin Nümunəvi forması" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan və Serbiya hökumətləri arasında Birgə Komissiyanın IX iclası və Azərbaycan-Serbiya biznes-forumu keçirilib





Maliyyə Nazirliyindən bildirilib ki, oktyabrın 23-də keçirilən iclasdan əvvəl Azərbaycan nümayəndə heyəti Belqradın Taşmaydan parkında Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, onun xatirəsini ehtiramla yad edib.

Komissiyanın həmsədrləri - Azərbaycan Respublikasının maliyyə naziri Sahil Babayev və Serbiya Respublikasının mədəniyyət naziri Nikola Selakoviç arasında iclasdan əvvəl keçirilən təkbətək görüşdə iki ölkə arasında iqtisadi, ticarət, enerji, nəqliyyat və informasiya texnologiyaları, gömrük, kənd təsərrüfatı, turizm, sosial müdafiə, səhiyyə, təhsil, mədəniyyət, gənclər və idman, eləcə də qida təhlükəsizliyi sahələrində əməkdaşlığın mövcud vəziyyəti və yeni imkanlar ətraflı müzakirə olunub, komissiyanın IX iclasının gündəliyinə dair fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən komissiyanın iclasında çıxış edən S.Babayev iki ölkə arasında strateji tərəfdaşlığın qarşılıqlı etimada, dostluğa və hörmətə əsaslandığını vurğulayıb. Nazir qeyd edib ki, prezidentlər İlham Əliyev və Aleksandar Vuçiçin güclü siyasi iradəsi və şəxsi dostluğu Azərbaycan-Serbiya münasibətlərinin möhkəm təməlini formalaşdırıb. Onun sözlərinə görə, dövlət başçılarının son illərdəki qarşılıqlı səfərləri və beynəlxalq tədbirlər çərçivəsində görüşləri iki ölkə arasında strateji dialoqun dərinliyini aydın şəkildə nümayiş etdirir.

Nazir həmçinin Serbiya Milli Assambleyasının sədri xanım Ana Brnabiçin Azərbaycana son səfəri ilə möhkəmlənən parlamentlərarası əməkdaşlığın əhəmiyyətini də vurğulayıb.

İqtisadi və ticarət sahəsində əməkdaşlıqdan danışan Sahil Babayev bildirib ki, Azərbaycanla Serbiya arasında qarşılıqlı ticarət dövriyyəsinin artması, işgüzar missiyaların təşkili və sahibkarlar arasında əlaqələrin genişləndirilməsi iki ölkənin strateji maraqlarına xidmət edir: "Serbiya Cənub-Şərqi Avropada Azərbaycanın mühüm tərəfdaşıdır. Qarşıdakı dövrdə iqtisadi, maliyyə, sənaye, turizm, nəqliyyat və enerji kimi sahələrdə birgə layihələrin reallaşması bu əməkdaşlığı daha da genişləndirəcək".

Qeyd olunub ki, hazırda Azərbaycanda 9 Serbiya şirkəti fəaliyyət göstərir, Azərbaycanın aparıcı tikinti şirkətləri Serbiyada iri avtomagistral layihələri uğurla həyata keçirir. S.Babayev bildirib ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulmasında Serbiya şirkətlərinin iştirak marağı məmnunluqla qarşılanır və bu sahədə əməkdaşlıq iqtisadi əlaqələri daha da dərinləşdirəcək.

Enerji əməkdaşlığı iki ölkə münasibətlərinin əsas istiqamətlərindən biri kimi komissiyanın iclasında diqqət mərkəzində olub. Qeyd olunub ki, Azərbaycan 2024-cü ilin yanvarından etibarən Serbiyaya təbii qaz tədarükünə başlayıb və indiyədək təxminən 300 milyon kubmetr qaz ixrac olunub. Azərbaycanın Dövlət Neft Fondu Serbiyada 72,7 milyon ABŞ dolları həcmində investisiya portfelinə malikdir, həmçinin Niş şəhərində 500 meqavat gücündə kombinə olunmuş qaz-turbin-elektrik stansiyasının inşası üzrə SOCAR, EPS və Srbijagas şirkətlərinin əməkdaşlığı tərəflərin enerji tərəfdaşlığını yeni mərhələyə daşıyacaq.

Nazir nəqliyyat və logistika əlaqələrinin gücləndirilməsinin hər iki ölkə üçün prioritet olduğunu qeyd edərək, Ermənistan-Azərbaycan sülh prosesi çərçivəsində elan edilmiş və bölgə üçün böyük perspektivlər vəd edən nəqliyyat dəhlizləri və "Yaşıl Enerji Dəhlizi" kimi yeni təşəbbüslərin əməkdaşlıq üçün geniş imkanlar açdığını diqqətə çatdırıb.

Nazir Serbiyanın "EXPO 2027 Belqrad" sərgisinə evsahibliyi edəcəyinə görə təbriklərini çatdırıb və Azərbaycanın bu sərgidə fəal iştirak edəcəyini bildirib.

Nikola Selakoviç çıxışında Azərbaycanla Serbiya arasında əməkdaşlığın qarşılıqlı hörmət və fayda prinsipləri üzərində qurulduğunu, bu əməkdaşlığın ən strateji sahələri əhatə etdiyini vurğulayıb. O, iki ölkə arasında tikinti, infrastruktur, nəqliyyat, ticarət, kənd təsərrüfatı, enerji, mədəniyyət və turizm kimi sahələrdə əlaqələrin genişləndirilməsinin əhəmiyyətini qeyd edib.

Selakoviç həmçinin Serbiya və Azərbaycanın suverenlik və ərazi bütövlüyünə hörmətə əsaslanan, dostluq və qarşılıqlı etimada söykənən münasibətlərini bir daha təsdiqləyib, Azərbaycanın Kosovonun birtərəfli qaydada elan olunmuş "müstəqilliyini" tanımadığına və Serbiyaya beynəlxalq təşkilatlar çərçivəsində göstərilən ardıcıl dəstəyə görə minnətdarlığını bildirib.

O, ikitərəfli münasibətlərin strateji xarakter daşıdığını və bunun 2013-cü il Strateji Tərəfdaşlıq Bəyannaməsi, 2018-ci il Birgə Fəaliyyət Planı və 2022-ci il Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Anlaşma Memorandumu ilə rəsmiləşdirildiyini qeyd edib. Selakoviç Strateji Tərəfdaşlıq Şurasının ilk iclasının 2025-ci ilin sonuna qədər keçirilməsinə ümid etdiyini də vurğulayıb.

Nikola Selakoviç 2027-ci ilin may-avqust aylarında Belqradda keçiriləcək "EXPO 2027 Belqrad" sərgisində ölkəmizi bir daha iştirak etməyə dəvət edib və Azərbaycan Respublikasının bu sərgidə fəal iştirak edəcəyinə əmin olduğunu bildirib.

İclas başa çatdıqdan sonra S. Babayev və N. Selakoviç tərəfindən Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın IX iclasının nəticələrinə dair protokol, həmçinin Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov və Serbiya İnkişaf Agentliyinin Beynəlxalq əməkdaşlıq sektorunun direktoru Nikola Yankoviç tərəfindən Anlaşma Memorandumu çərçivəsində fəaliyyətlərin icrası üzrə Yol xəritəsi imzalanıb.

Daha sonra həmsədrlər mətbuat nümayəndələrinin suallarını cavablandırıblar.

Mətbuat konfransı bitdikdən sonra dövlət və özəl sektor nümayəndələrinin iştirakı ilə Azərbaycan-Serbiya biznes-forumu keçirilib. Forumda Sahil Babayev və Nikola Selakoviç çıxış ediblər.

S.Babayev çıxışında Birgə Komissiyanın IX iclasının nəticələrinin Azərbaycan-Serbiya münasibətlərinin dostluq və strateji tərəfdaşlıq ruhuna uyğun olaraq əməkdaşlığın gələcək istiqamətlərini müəyyənləşdirdiyini bildirib. O, hökumətlərarası dialoqun iki ölkə arasında iqtisadi münasibətlərin dərinləşdirilməsi üçün etibarlı platforma yaratdığını, biznes icmalarının isə bu prosesin əsas hərəkətverici qüvvəsi olduğunu qeyd edib.

Nazir vurğulayıb ki, Azərbaycanın iqtisadi siyasəti şəffaflıq, dayanıqlılıq və diversifikasiya prinsiplərinə əsaslanır. S.Babayev ölkəmizdə biznes mühiti üçün geniş imkanların mövcud olduğunu qeyd edib və xüsusilə Ələt Azad İqtisadi Zonası, həmçinin Asiyanı Avropa ilə birləşdirən "Orta dəhliz" layihəsi çərçivəsində formalaşan yeni nəqliyyat və logistika infrastrukturunun investorlar üçün böyük potensial yaratdığını diqqətə çatdırıb. O, Serbiya şirkətlərini Azərbaycanda həyata keçirilən yeni layihələrdə fəal iştirak etməyə, Azərbaycan şirkətlərini isə Serbiya və daha geniş Balkan regionunda əməkdaşlığı genişləndirməyə dəvət edib.

Nazir çıxışının sonunda Azərbaycan və Serbiya arasında dostluq və strateji tərəfdaşlığın gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini bildirib, forum iştirakçılarına səmərəli müzakirələr və yeni biznes razılaşmalarının əldə olunmasını arzulayıb.

Forum çərçivəsində iş adamları arasında ikitərəfli görüşlər keçirilib, qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlıq imkanları və birgə layihələrin həyata keçirilməsi perspektivləri müzakirə olunub. AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev biznes-forumda çıxış edib.

Biznes-forumda ümumilikdə 50-dən artıq şirkət, o cümlədən Azərbaycandan 16 şirkət iştirak edib.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Braziliyaya səfərə gedib

22 oktyabr 2025-ci ildə Belem şəhərində COP30 çərçivəsində "Prokurorluq orqanlarının iqlim idarəçiliyində rolu" adlı beynəlxalq plenar iclas öz işinə başlayıb.



Tədbirin açılış mərasimində çıxış edən Braziliya Federativ Respublikasının baş prokuroru Paulo Qonet iqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə, xüsusilə prokurorluq orqanlarının artan rolunu vurğulayıb, bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Paulo Qonet həmçinin Azərbaycan Respublikasına COP29-a uğurla evsahibliyi etdiyinə görə və bu beynəlxalq konfrans çərçivəsində Mavi zonada Azərbaycan Prokurorluğu tərəfindən təşkil olunan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli beynəlxalq tədbirə görə xüsusi təşəkkürünü ifadə edib.

Plenar iclasda çıxış edən baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi ilə ölkəmizdə iqlim dəyişikliyi ilə mübarizə istiqamətində həyata keçirilən tədbirlər, ətraf mühitin mühafizəsi sahəsində görülən çoxşaxəli işlər, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi və bu prosesdə prokurorluq orqanlarının fəal rolu barədə ətraflı məlumat verib.

Çıxış zamanı dövlətimizin başçısının 25 sentyabr 2025-ci il tarixdə Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında səsləndirdiyi Xəzər dənizinin ekoloji vəziyyəti ilə bağlı fikirlərə toxunularaq, Xəzər dənizində ətraf mühitə zərər vuran cinayətlərə qarşı mübarizədə regional səylərin birləşdirilməsinin vacibliyi vurğulanıb.

Baş prokuror həmçinin BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (BMTNCİ), Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) kimi beynəlxalq qurumlarla sıx əməkdaşlığın həyata keçirildiyini bildirib.

Qeyd edib ki, 2024-cü ilin 15 noyabrında COP29 çərçivəsində Azərbaycan Prokurorluğunun təşkilatçılığı ilə "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda yüksəksəviyyəli beynəlxalq tədbir keçirilib və tədbirdə 200-dən çox xarici və yerli nümayəndə iştirak edib.

Tədbir çərçivəsində "Belem Bəyannaməsi" qəbul edilib. Bəyannamədə prokurorluq orqanlarının ətraf mühitin qorunması, iqlim ədalətinin təmin olunması və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi ilə bağlı vəzifələri əksini tapıb.

Plenar iclasdan sonra baş prokuror Braziliyanın aparıcı televiziya kanallarına müsahibə verib.

Müsahibə zamanı Azərbaycan Prokurorluğunun iqlim cinayətləri ilə mübarizə sahəsində topladığı təcrübə, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və təcrübə mübadiləsinin vacibliyi, həm ölkələr, həm də prokurorluq orqanları arasında sıx əlaqələrin və etimad mühitinin mövcud olması, eləcə də ölkə rəhbərlikləri səviyyəsində əməkdaşlığın yüksək səviyyədə qurulması vurğulanıb.

Bundan başqa, baş prokuror COP29 çərçivəsində Azərbaycan Prokurorluğu tərəfindən təşkil olunan yüksəksəviyyəli beynəlxalq tədbirin sonunda qəbul olunan "Baku Call to Action" sənədini xatırladaraq, həm bu təşəbbüsün, həm də "Belem Bəyannaməsi"nin qlobal miqyasda iqlim ədalətinin təmininə və ekoloji cinayətlərə qarşı birgə səylərin artırılmasına mühüm töhfə verdiyini qeyd edib.

# Gələcək əməkdaşlığa dair müzakirələr aparılıb

Azərbaycan və Serbiyanın dövlət başçılarının siyasi iradəsi və təşəbbüskarlığı nəticəsində iki ölkənin əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və daim genişlənən əlaqələr sosial sahəni də əhatə edir.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu barədə ölkəmizdə səfərdə olan Serbiyanın ailə rifahı və demoqrafiya naziri Yelena Zariç Kovaceviçin başçılıq etdiyi nümayəndə heyəti ilə keçirilən görüşdə bildirilib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Azərbaycan və Serbiya arasında münasibətlərin dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslandığını, ötən dövrdə ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, əmək və sosial müdafiə sahəsində də uğurlu əməkdaşlıq təcrübəsinin formalaşdığını qeyd edib.

Azərbaycanda son illər aparılan sosial islahatlar, DOST modeli, dövlət sosial xidmətlərinin elektronlaşdırılması istiqamətində əldə olunan nailiyyətlər barədə məlumat verilib və islahatların uğurlarının beynəlxalq səviyyədə də yüksək qiymətləndirildiyi bildirilib. Həssas qruplardan olan şəxslərin və ailələrin sosial dəstək tədbirləri ilə əhatə olunması işləri diqqətə çatdırılıb.

Ölkəmizdə demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində həyata keçirilən dövlət siyasətindən bəhs olunub, bu sahədə Serbiya ilə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün potensialın olduğu bildirilib.

Yelena Zariç Kovaceviç Azərbaycana səfəri ilə bağlı xoş təəssüratlarını ifadə edərək, ölkəsinin Azərbaycanla dost münasibətlərini və iki ölkənin nazirlikləri arasında əlaqələrin inkişafında maraqlı olduqlarını vurğulayıb.

Görüşdə Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Serbiyanın Ailə Rifahı və Demoqrafiya Nazirliyi arasında demoqrafiya sahəsində gələcək əməkdaşlıq, təcrübə mübadilələrinin aparılması məsələləri müzakirə olunub.

# Enerji resurslarından səmərəli istifadə üçün qanunvericilik təkmilləşdirilir

Oktyabrın 23-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin videokonfrans formatında iclası keçirilib. İclası açan komitə sədri Sadiq Qurbanov gündəliyə 4 məsələnin daxil edildiyini bildirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə komitə sədri gündəliyin birinci məsələsi - "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verib.

Qeyd olunub ki, birinci oxunuşda müzakirə edilən qanun layihəsi enerji səmərəliliyinin artırılması, enerji resurslarından qənaətli istifadə məqsədi daşıyır. Bu məqsədlə müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Layihə çərçivəsində maarifləndirmə fəaliyyətlərinin genişləndirilməsi, enerji audit sisteminin təkmilləşdirilməsi əsas prioritetlər sırasındadır. Layihəyə əsasən, Enerji Effektivliyi İnformasiya Sistemi adlanan elektron platformanın yaradılması planlaşdırılır. Həmin sistem vasitəsilə enerji audit üzrə müraciətlərin qəbulu, müvafiq reyestrlərin aparılması, məlumatların toplanması və ictimaiyyət üçün faydalı məlumatların paylaşılması təmin ediləcək.




Daha sonra gündəliyin ikinci məsələsi "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi digər məsələ ilə əlaqədar ikinci oxunuşda təqdim olunub. Layihə barədə məlumat verən komitə sədri bildirib ki, sənədə əsasən, yeni inşa edilən, yenidən qurulan və əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binaları üçün enerji effektivliyi pasportunun alınması məcburi olacaq. Bununla belə, tarixi abidələr, yardımçı və müvəqqəti tikililər, istixanalar, anbarlar, istehsalat binaları və fərdi yaşayış evləri kimi bəzi obyektlər bu tələbdən azad ediləcək.

Gündəliyin növbəti məsələsi - "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" və "Standartlaşdırma haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda müzakirə olunub. Qeyd olunub ki, sənəd milli akkreditasiya sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasını nəzərdə tutur. Bununla əlaqədar olaraq uyğunluğun qiymətləndirilməsi sahəsində fəaliyyət göstərən qurumların səlahiyyət dairəsi genişləndirilir, həmçinin "səriştəlilik sınağı", "validasiya" və "verifikasiya" kimi yeni anlayışlar qanunvericiliyə daxil edilir.

Daha sonra komitənin üzvləri gündəliyin sonuncu məsələsi - cari məsələlər barədə fikir mübadiləsi aparıblar.

Qanun layihələrinin müzakirəsində Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Fatma Yıldırım, üzvləri Vüqar Rəhimzadə və Asif Əsgərov çıxış edərək fikirlərini söyləyiblər, təkliflərini səsləndiriblər.

İclasın sonunda qanun layihələri baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***




# AZƏRBAYCANA ŞƏRƏF GƏTİRƏN 1088 GÜN

Gün var əsrə bərabər!

Möhtəşəm hadisələrin, ağlasığmaz dəyişikliklərin baş verdiyi günlər barədə belə deyirlər!

Hər günüm bir il kimi keçir.

Bu ifadə isə adətən əzab-əziyyətli, məşəqqətli günlər haqqında söylənilir.

*Qarabağ müharibəsindən Zəfərə qədər keçilən uzun bir yolda bu ifadələrin hər ikisini məqamında işlətdik.*

**8 noyabr 2020-ci il xalqımız üçün əsrə bərabər bir günə çevrildi!**

*14 may 1994-cü ildən - atəşkəs başlayandan böyük qələbəyədək 10407 gündə isə hər birimiz dəfələrlə, məcburi köçkünlərimiz isə hətta illərlə "ilə bərabər" günlər yaşadılar!*

**Amma xoşbəxtlikdən heç kim qələbəyə olan inamını heç vaxt itirmədi!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi:**

*"Biz bütün dünyaya və bu gün işğaldan əziyyət çəkən, hətta müstəmləkəçilikdən əziyyət çəkən xalqlara göstərdik ki, inamla yaşamaq lazımdır. İnam heç vaxt qırılmamalıdır. Əgər inam qırılsa, onda heç vaxt ədalət zəfər çala bilməz".*

Azərbaycan xalqı heç zaman ümidsiz və inamsız olmadı!

Nə Qarabağ uğrunda gedən müharibələrdə, nə işğalın davam etdiyi müddətdə bir an da olsun torpaqların geri qaytarılacağına inamını itirdi!

**27 sentyabr 2020-ci ildən etibarən hərbi əməliyyatların fasilələrlə davam etdiyi 1088 gündə isə nəinki torpaqlarını işğaldan qurtardı, hətta ərazi bütövlüyünə də nail olaraq dövlət suverenliyini və konstitusiya əsaslarını da bərpa etdi!**

❖ ❖ ❖

Düşmənlərimiz həmişə bizdən ərazi qoparmaq, təbii sərvətlərimizə sahib çıxmaq üçün fürsət gözləyiblər...

Əlverişli məqamın çatdığını gördükdə isə özlərinin yaratdıqları "Qarabağ problemi"ni işə salıblar.

İlk dəfə bu "problem" hesabına Azərbaycandan torpaq almaq cəhdi Azərbaycan Xalq Cümhuriyyəti qurulanda - Azərbaycan birinci dəfə dövlət müstəqilliyi qazananda baş tutdu.

Ötən əsrin sonlarında Azərbaycan ikinci dəfə dövlət müstəqilliyinə nail olmaq istəyəndə yenidən eyni ssenari işə salındı.

70 illik sovet dönəmində dəfələrlə müxtəlif üsullarla bizdən torpaq almaq istəsələr də, istəklərinə yetərincə çata bilmədilər.

**Xüsusən Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə dəfələrlə bu istiqamətdəki cəhdlər boşa çıxarıldı.**

*Sovetlər İttifaqında böyük nüfuz sahibi olan Heydər Əliyev hər dəfə onları məharətlə yerlərində oturdurdu.*

Odur ki, dostlarına arxalanan ermənilər yeni fürsət gözləyirdilər.

**Belə bir fürsət isə əllərinə Ulu Öndər Heydər Əliyev 1987-ci ildə SSRİ rəhbərliyindən istefaya göndəriləndən sonra keçdi.**

*Heydər Əliyevin istefasından iki həftə sonra bir sovet erməni alimi (Aqanbekyan - B.S) Fransanın "Humanite" qəzetinə müsahibəsində "Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan çıxarılaraq Ermənistana birləşdirilməlidir" fikrini səsləndirdi.*

Sovet mətbuatının bu fikri hallandırması Azərbaycanda böyük narazılıqlara və etirazlara səbəb oldu.

Ermənistan isə bundan ruhlanaraq Qarabağdakı ermənilərin fəallıqlarını artırmağa və separatizm hərəkatının baş qaldırmasına təkan verdi.

**22 fevral 1988-ci ildə Xankəndidə yaşayan erməni separatçılarının qudurğan hərəkətlərinə etiraz olaraq Ağdamdan oraya doğru əhalinin dinc yürüşü başladı.**

Niyyətlərinə çatmaqdan ötrü ciddi hazırlıqlar görən, hətta gizlin şəkildə silahlanan ermənilər nümayiş iştirakçılarına qarşı silah işlətdilər.

*Nəticədə iki ağdamlı gənc - Bəxtiyar və Əli güllə yarası alaraq həlak oldular.*

*Bu, I Qarabağ müharibəsinin başlanması, öldürülənlər isə xalqımızın ilk şəhid övladları idi.*

**Ərazi bütövlüyü uğrunda başlanan Qarabağ müharibəsinin Zəfərlə sonuclanaraq Ermənistanın tam məğlubiyyəti ilə başa çatdırılmasına isə bütövlükdə 11951 gün gərək oldu!**

*Uğur, uğursuzluq, əzab, çətinliklər, sevinc və qələbə göz yaşları ilə dolu, sonda isə möhtəşəm zəfərlə başa çatan və heç zaman unudulmayacaq 11951 gün!*

❖ ❖ ❖

Erməni işğalçıları üzərində tarixi qələbəmizin 5 ilini qeyd edəcəyimizə sayılı günlər qalıb!

Xalqımızın hər bir üzvünə böyük sevinc, haqlı qürur və sonsuz fəxarət bəxş edən şanlı Qələbə Gününə!

Qələbəmizin zirvəsindən geriyə baxanda nələri görürük?

Ermənistan heç zaman bizdən nəinki torpaq almaq, heç bizimlə müharibə etmək cəsarətində olmazdı.

Amma dostları və havadarları onların arxalarında dayanaraq silahlandırdılar və bizə üstün gəlmələrinə hər cür kömək göstərdilər.

**I Qarabağ müharibəsində məğlubiyyətimizin ikinci mühüm səbəbi isə xalqımızın öz sevimli rəhbərindən uzaq düşməsi, həmin dövrdə ölkəyə maymaq, qorxaq, təcrübəsiz və səriştəsiz insanların başçılıq etmələri idi.**

*AXC-Müsavat iqtidarı təkcə naşılığına görə yox, həm də xəyanətkar əməllərinə görə Şuşa və Laçın kimi şəhərlərin asanlıqla düşmənə verilməsinə şərait yaratdı.*

**Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqda isə artıq iş-işdən keçmişdi.**

Dahi rəhbərimiz Azərbaycanı yalnız bir dövlət kimi məhvolmadan, xaos, anarxiya və özbaşınalıq burulğanından qurtarmaqla müstəqilliyimizi əbədi və dönməz etmədi, üstəlik müharibədə atəşkəs yaratmaqla yeni ərazilərin işğalının qarşısını da aldı!

Ömür bundan artığına imkan vermədi!

**Ulu Öndər Heydər Əliyevin müqəddəs vəsiyyətlərinə əməl etmək onun layiqli siyasi varisi cənab İlham Əliyevin üzərinə düşdü.**

*İlham Əliyev bütün bunların öhdəsindən şərəf və ləyaqətlə gəldi!*

❖ ❖ ❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyev sülh danışıqlarını davam etdirsə də, heç zaman Azərbaycan xalqının işğalla barışmayacağını və lazım gələrsə, hərbi yolla ərazi bütövlüyünə nail olacağını söyləyirdi.**

Belə də oldu!

Havadarlarına güvənən düşmən məsələni bitmiş sayır və lovğalanaraq özünü Qarabağın sahibi kimi aparırdı.

Lakin bu, onun xam xəyalı idi!

*İlham Əliyevin yetişdirdiyi gənclərdən yaradılan və ən müasir silahlarla silahlandırılan yeni ordu hələ öz sözünü deməmişdi!*

*Zaman çatdı və Azərbaycan xalqının şərəf, milli qürur müharibəsi başladı!*

Zəfər müharibəsi və onun nəticələri ilə bağlı məqamlara Müzəffər Ali Baş Komandan İlham Əliyev dəfələrlə müxtəlif çıxışlarında toxunmuşdur.

Belə maraqlı çıxışlarından birini isə Xankəndidə 20 sentyabr 2024-cü ildə Qarabağ Universitetinin açılışı zamanı etmişdir.

Gərəkli məqamlarda həmin çıxışdan iqtibaslar gətirəcəyik.

**27 sentyabr 2020-ci ildə başlayan və 90 mindən çox gənc azərbaycanlının iştirak etdiyi II Qarabağ müharibəsi ilk günlərdən qeyri-adiliyi ilə diqqət çəkirdi.**

Hərbi əməliyyatların gedişində ən müasir silahlardan istifadə olunur, yeni taktika və strategiya tətbiq edilirdi.

*Heç də təsadüfi deyil ki, bu müharibə ümumilikdə hərbi ekspertlər tərəfindən nümunəvi müharibə sayılaraq "XXI əsrin yeni tipli müharibəsi" adını qazandı və buradakı bir çox döyüş əməliyyatı dünyanın bir sıra hərbi məktəblərində öyrənilməyə başlandı.*

Yeni silah-sursatlarla yanaşı, bu müharibədə əsgər və zabitlərin mənəvi durumu, döyüş əzmi də yeni idi və son nəticədə öz əksini tapdı!

**Müharibənin baş sərkərdəsi və baş qəhrəmanı İlham Əliyevin dediklərindən:**

*"Bildiyiniz kimi, 44 gün ərzində şanlı ordumuz hər gün irəli gedirdi, hər gün yaşayış məntəqələri işğalçılardan azad edilirdi və bildiyimə görə, dünya hərb tarixində buna oxşar hərbi əməliyyatlar olmamışdır. Bir gün belə geriyə addım atmamışıq, hər gün bir neçə kənd, bir neçə qəsəbə, şəhər azad edilirdi. Bir nəfər də olsun döyüş meydanını tərk etməmişdir. Amma Ermənistanın rəsmi nümayəndələrinin özlərinin etirafına görə, Ermənistan ordusunda 12 mindən çox fərari olmuşdur. Bu, nəyi göstərir? Əlbəttə ki, xalqımızın yüksək mənəvi keyfiyyətlərini göstərir. Bununla bərabər, onu göstərir ki, sinəsini qabağa verən gənclər o qədər vətənpərvərlik ruhunda tərbiyə olunmuşdur ki, onlar üçün Vətən torpaqlarını azad etmək ən şərəfli missiya olmuşdur".*

**Müzəffər Ali Baş Komandanımız qələbənin ən mühüm şərtlərindən birinin məhz bu amil olduğunu göstərir:**

*"Təbii ki, peşəkarlıq, qəhrəmanlıq, texniki təchizat - bütün bunlar da vacib amillərdir. Ancaq mənəvi üstünlük olmasa, milli düşüncə olmasa, heç bir ən güclü ordu heç vaxt heç bir qələbə qazana bilməz".*

Ordumuzun qəhrəmanlıqla, yüksək peşəkarlıqla döyüşməsi heç də təsadüfi deyildi.

Çünki Azərbaycan xalqı da, onun əsgər və zabit balaları da nə işğalla, nə də dünyanın Qarabağ münaqişəsi ilə bağlı yol verdiyi ədalətsizliklərlə barışdılar.

Hərçənd ki, ermənisayaq düşünənlər belə hesab edirdilər ki, sülh danışıqlarını uzatdıqca Qarabağı görməyən yeni nəsil gələcək və onlar torpaq uğrunda döyüşməyəcəklər!

**Faktlar isə tam əksini göstərdi!**

*Vətən müharibəsində və antiterror əməliyyatı keçirərkən 3200-dən çox qəhrəman əsgər və zabitimiz şəhadət zirvəsinə ucaldı!*

Heç bir qurum və təşkilatın Azərbaycan xalqını işğalla barışdırmaq cəhdi isə heç zaman baş tutmadı.

**Müzəffər Ali Baş Komandan İlham Əliyev həmin günləri belə xatırlayır:**

*"İşğal dövründə müxtəlif paytaxtlardan gələn qonaqlar dəfələrlə deyirdilər ki, bu məsələnin, bu münaqişənin hərbi həlli yoxdur. Bəlkə sizin də yadınızdadır ki, belə bir tezis var idi - bunun hərbi həlli yoxdur, sülh yolu ilə həll olunmalıdır. Eyni zamanda o vaxt "Birinci Qarabağ" deyilmirdi, amma Qarabağ müharibəsinin nəticələri də nəzərə alınmalıdır. Yəni bizi nə ilə barışdırmaq istəyirdilər?! Məğlubiyyətlə. İstəyirdilər ki, xalqımız bu məğlubiyyətlə razılaşsın".*

**Düşmənlərimizin və bədxahlarımızın mənfur niyyətləri təkcə bununla bitmirdi:**

*"Digər tezis ondan ibarət idi ki, Ermənistanla əməkdaşlığa başlamaq lazımdır. Deməli, qeyri-hökumət təşkilatlarının xətti ilə müxtəlif seminarlar keçirilirdi. Bizdən olan xarici dairələrə satılmışlar da gedib o treninqlərdə ermənilərlə cici-bacılıq edirdilər, sövdələşirdilər, birləşirdilər, birgə məclislər təşkil edirdilər. Qaniçən, Xocalı soyqırımını törədən, Qarabağ bölgəsində bütün şəhər və kəndlərimizi viran qoyan düşmənlə hansı təmaslardan söhbət gedə bilərdi? Amma bu işğalı əbədi etmək istəyənlərin də məqsədi o idi ki, gələcək nəsil, gənc nəsil artıq müharibə istəməyəcək, biz Ermənistanla barışaq, işğal da yerində qalsın. Bax, bütün bu planları biz - Azərbaycan xalqı darmadağın etdik, alt-üst etdik".*

**Azərbaycan xalqı təkcə murdar düşüncə və yanaşmaları deyil, düşməni də alt-üst etdi, qarşısında diz üstə qoyaraq ona kapitulyasiya aktını imzalatdı!**

❖ ❖ ❖

10407 gün çəkən erməni işğalının hər günü Vətən həsrəti ilə yadda qalıb.

*Yalnız azərbaycanlı olduqlarına görə soyqırımına, vəhşiliklərə və qəddarlıqlara məruz qalan bir milyonadək insan olmazın məşəqqətlərə düçar oldu.*

* Üçkünc çadırlardan qurulmuş şəhərciklərdə yaşadı.
* Qışda soyuqdan, yayda istidən zillət çəkdi.
* İşsiz qaldı, ehtiyac içərisində yaşadı, dövlətin verdiyi yardımla birtəhər dolandı!
* Nə bəs qədər su tapdı, nə də xəstələnəndə dava-dərman!
* Nə düz-əməlli oğul evləndirdi, nə də qız köçürdü!

Amma dözdü, duruş gətirdi...

Hərçənd ki, dünyasını dəyişənlər də çox oldu.

Amma hamı dövlətinə, rəhbərinə, sərkərdəsinə inandı!

**İnandılar ki, gün gələcək, zalım düşmənin başını əzərək torpaqları azad edəcək, doğma el-obaya qayıdacaqlar.**

*Xalqımızı ən müqəddəs arzusuna çatdıran II Qarabağ müharibəsi cəmi 44 gün çəkdi!*

**44 gün ərzində ikiəsrlik Qarabağ münaqişəsinə, günlərlə deyil, saatlarla ölçülən Vətən həsrətinə "dəmir yumruq"la son qoyuldu!**

*Düşmən təkcə hərb meydanında deyil, diplomatiya sahəsində və informasiya müharibəsində də məğlubiyyətə uğradıldı.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün tələblərini və şərtlərini yerinə yetirən məğlub Ermənistan 10 noyabr 2020-ci ildə kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzaladı.**

Bu, hələ onun məğlubiyyətinin birinci mərhələsi idi.

*Zaman baxımından dəqiqələr ərzində yüksək peşəkarlıqla hazırlanan və icra olunan hərbi əməliyyat nəticəsində Həkəri çayı üzərindəki post ələ keçirildi, Laçın qapısı əbədi olaraq Azərbaycana qaytarıldı!*

**Başqa sözlə desək, tarixi Zəfərdən 896 gün sonra Azərbaycanın ərazi bütövlüyü bərpa edildi!**

Hələ bu da hamısı deyildi.

*Azərbaycan Ordusu daha bir unikal antiterror əməliyyatı keçirərək cəmi 23 saat ərzində bir nəfər mülki əhaliyə və obyektə xətər toxundurmadan Ermənistana məxsus qanunsuz hərbi birləşmələri və terrorçu qruplaşmalarını ağ bayraq qaldıraraq təslim olmağa məcbur etdi!*

Təslim olaraq silah-sursatını təhvil verənlərin və Azərbaycan vətəndaşlığını qəbul etməyərək Qarabağda yaşamaq istəməyənlərin ərazilərimizi təhlükəsiz surətdə tərk etmələrinə şərait yaradıldı!

**Beləliklə, ərazi bütövlüyünün bərpasından 150 gün sonra dövlət suverenliyi və konstitusiya əsasları da təmin olundu!**

*Vətən müharibəsindən 1044 gün sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u sayəsində ikiəsrlik Qarabağ münaqişəsi tarixin arxivinə verildi!*

**I Qarabağ müharibəsinin başlanmasından dövlət suverenliyimizin təminінədək 12995 gün keçmiş oldu!**

Daha bir maraqlı rəqəm:

*12 iyun 2024-cü ildə - II Qarabağ müharibəsinin başlanmasından 1355 gün sonra Rusiya sülhməramlı kontinqenti də Azərbaycan ərazisini birdəfəlik tərk etdi!*

❖ ❖ ❖

Rəqəmlər təkcə tarixi günləri və faktları əks etdirmir.

Bəzən rəqəmlər ömrümüzün səhifələri sayılan ağrılı-acılı, yaxud fərəhli və qürurlu günlərimizi də özündə yaşadır.

Yalnız həmin günləri yaşayanlar quru rəqəmlərin arxasındakı əsl yaşantıları görürlər.

**Təəssüf ki, on minlərlə keçmiş məcburi köçkün Qələbə gününü görmədən, Vətən muradına yetmədən dünyadan köçüb getdi.**

*Yeganə təskinliyimiz odur ki, onların qisasını aldıq, arzularını həyata keçirdik.*

Həm də bütün dünyaya sübut etdik ki, biz milli birliyə malik vətənpərvər xalqıq.

**İlham Əliyevin təbirincə desək:**

*"Biz göstərdik ki, güclü iradə, peşəkarlıq, vətənpərvərlik, milli ruhda tərbiyə olunan gənc nəsil olarsa, heç bir qüvvə o xalqın qabağında dura bilməz - nə 6, 7, 8, 9, 10 müdafiə xətti, nə Ermənistan ordusunun coğrafi üstünlüyü, - çünki bütün təpələrdə onlar yerləşmişdi, - nə böyük dövlətlər, nə də Ermənistanı silahlandıran və onlara mənəvi və fiziki yardım göstərən dövlətlər. Bax, bütün bu amillər bir yerdə olanda, o xalqın qabağında heç kim dura bilməz".*

* Qələbəni çətinliklə qazandıq!
* Qələbəni döyüşərək, çarpışaraq qazandıq!
* Qələbəni birləşərək, bir olaraq, "dəmir yumruğ"a çevrilərək qazandıq!
* Qələbəni Müzəffər Ali Baş Komandanımızın qətiyyəti, dönməz iradəsi, uzaqgörənliyi və müdrik rəhbərliyi sayəsində qazandıq!

Bu gün isə yenə onun başçılığı ilə Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirir, min əzab-əziyyət görmüş Vətən həsrətli insanların doğma yurdlarındakı xoşbəxt günlərinə baxaraq sonsuz fərəh hissi keçiririk!

**Bəxtiyar SADIQOV**

# İqtisadi azadlıq dövlət suverenliyinin əsas göstəricilərindən biridir

Dövlət suverenliyinin əsas prinsiplərindən biri dövlətin iqtisadi müstəqilliyidir. İqtisadi azadlıq bazar münasibətləri yaratmaqla yanaşı, eyni zamanda suverenliyin təməl funksional ifadəsidir.

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etsə də, həmin dövrdə bu müstəqilliyin iqtisadi əsasları kifayət qədər möhkəm deyildi. Təbii resurslara, xüsusən də zəngin neft yataqlarına malik olmağımıza baxmayaraq, onların üzərində milli qərarvermə iradəsi formalaşmamışdı. Əslində, iqtisadi müstəqilliyi əngəlləyən qüvvələr var idi və başa düşürdülər ki, bu müstəqillik dövlət müstəqilliyinin əsasıdır. Onlar müstəqil dövlət olmağımızın əleyhinə çıxırdılar. Bu gün də belə



qüvvələr var, son hadisələr buna əyani misaldır. Məhz Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələb və təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdışı ölkədə xaosdan hüquqa, qeyri-müəyyənlikdən institusional idarəetməyə, nizamsızlıqdan dövlət intizamına keçidin başlanğıcı oldu. Bu qayıdış Azərbaycanın real müstəqilliyinin, o cümlədən iqtisadi suverenliyinin və azad bazar münasibətlərinə əsaslanan inkişaf modelinin təməlini qoydu.

Ulu Öndər ilk növbədə dövlətin hüquqi əsaslarını möhkəmləndirərək, 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbuluna nail oldu. Bu fundamental sənəd Azərbaycanın müstəqil dövlət kimi formalaşmasını və sistemli idarəetmə modelinə keçidini təmin etdi.

Yeni konstitusiya yalnız siyasi sabitliyin təminatçısı kimi çıxış etmədi, eyni zamanda iqtisadi azadlıqların hüquqi çərçivəsini də müəyyənləşdirdi. Burada əsas prinsiplər aşağıdakı kimi təsbit olundu:

- Mülkiyyətin toxunulmazlığı;
- Sahibkarlığın azadlığı;
- Təbii resursların dövlətə məxsusluğu ilə yanaşı, onların istifadəsində azad bazar mexanizmlərinin tətbiqi.

Ümummilli Lider Heydər Əliyev iqtisadi azadlığı ideoloji seçim kimi deyil, milli suverenliyin qorunmasının əsas mexanizmi kimi qəbul edirdi. Öz çıxışlarında Ulu Öndər deyirdi: "Azərbaycan dövlətinin iqtisadi siyasəti Azərbaycanın iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməkdən ibarətdir". "Biz yeni iqtisadi münasibətlərə keçidlə çoxnövlü iqtisadiyyatın yaradılmasını və mülkiyyət münasibətlərinin yenidən qurulmasını təmin edirik". "Sahibkarlığın inkişafı bizim strateji yolumuzdur".

Heydər Əliyevin həyata keçirdiyi iqtisadi islahatlarda azadlıq nizam-intizamla, bazar isə milli maraqla və dövlət nəzarəti ilə vəhdət təşkil edirdi.

Bu konseptual yanaşmanın ən parlaq təzahürü "Əsrin müqaviləsi" oldu. Həmin müqavilə Azərbaycanın enerji potensialını beynəlxalq kapital və texnologiya ilə birləşdirməklə ölkəmizi qlobal enerji xəritəsinə daxil etdi. Heydər Əliyev çıxışlarında bu barədə deyib: "Biz bu müqaviləni imzalamaqla Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq". "Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır".

Daha mühümü isə odur ki, Ulu Öndər iqtisadi azadlıqları real maliyyə resursuna, sərmayəyə və institusional inkişaf dinamikasına çevirdi. Beləliklə, Heydər Əliyevin rəhbərliyi ilə iqtisadi azadlıqlar təkcə bazar münasibətləri deyil, dövlət müstəqilliyinin praktiki təminat forması kimi reallaşdı.

İqtisadi azadlıq, konstitusiyanın canlı prinsipi kimi, yalnız hüquqi norma olaraq deyil, həm də iqtisadi sistemin real funksionallığında özünü göstərməlidir. İqtisadi azadlıq anlayışı çərçivəsində sahibkarlığın sərbəst fəaliyyəti, sərmayənin sərbəst hərəkəti, mülkiyyət hüquqlarının qorunması və təbii resursların milli maraqlara uyğun idarə olunması nəzərdə tutulur.

Bu azadlıqların strateji funksiyaları aşağıdakı kimi müəyyən edilə bilər:

1. Siyasi müstəqilliyin iqtisadi təminatı: Dövlətin siyasi qərarvermə səlahiyyətləri iqtisadi dayaqlarla dəstəklənir.

2. Enerji sektorunda suveren qərarvermənin əsası: Enerji resurslarının idarə olunması və ixracı ilə bağlı qərarlar milli maraqlar çərçivəsində qəbul edilir.

3. Ekoloji siyasətdə məsuliyyətli qərarvermənin zəruriliyi: İqtisadi azadlıq ekoloji standartlar və davamlı inkişaf prinsipləri ilə uzlaşdırılmalıdır.

Əgər bir dövlətin enerji siyasətini beynəlxalq şirkətlər, ekoloji siyasətini isə donor təşkilatlar müəyyənləşdirirsə, həmin dövlət yalnız formal müstəqillik qazanmış olur, lakin onun iqtisadi suverenliyi ciddi şəkildə məhdudlaşır. Azərbaycan Respublikası isə bu riskdən uzaq qalmağı bacarmışdır, çünki ölkədə iqtisadi azadlıq nəzarətsizlik deyil, qanun və institusional qaydalar əsasında formalaşan məsuliyyətli azadlıq prinsipi ilə həyata keçirilir.

Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında iqtisadi azadlıqlar anlayışı yeni məzmun aldı. Heydər Əliyev dövlətin bünövrəsini qoydu, cənab İlham Əliyev isə bu bünövrəni modern idarəetmə və strateji çevikliklə inkişaf etdirdi.

Prezidentin enerji siyasəti artıq yalnız neft gəlirləri üzərində qurulmur. O, "Azərbaycan 2030" strategiyasında iqtisadi azadlıqları davamlı inkişaf, "yaşıl enerji" və innovasiya iqtisadiyyatı ilə birləşdirdi.

- "Cənub qaz dəhlizi" və Bakı-Tbilisi-Ceyhan kimi layihələr milli qərarvermənin suverenliyini qorudu;
- Zəngilan və Kəlbəcərdə bərpaolunan enerji zonaları isə iqtisadi azadlıqları ekoloji məsuliyyətlə birləşdirdi;
- Dövlət Neft Fondunun fəaliyyəti isə neft gəlirlərinin nəsillərarası bərabərlik prinsipinə əsaslanmasını təmin etdi.

Cənab İlham Əliyevin yeni iqtisadi yanaşması ilə iqtisadi azadlıq konsepsiyası dövlət idarəçiliyinin mərkəzi elementinə çevrilmişdir. Bu yanaşmada dövlət yalnız nəzarətçi funksiyasını icra etməklə kifayətlənmir, əksinə, tənzimləyici və təşviqedici rol oynayaraq iqtisadi fəaliyyətin səmərəli və dayanıqlı şəkildə inkişafını təmin edir.

Bu model həmçinin klassik "sərbəst bazar" anlayışından fərqlənir, çünki iqtisadi azadlıq burada milli maraqlar və strateji hədəflər üzərində qurulmuşdur, dövlət iqtisadiyyatı yalnız bazar qüvvələrinə buraxmır, eyni zamanda strategiya və dövlət maraqları çərçivəsində yönləndirir və təşviq edir.

Azərbaycanın enerji sektoru, neft, qaz, alternativ enerji yalnız ixrac potensialı deyil, həm də geoiqtisadi müstəqilliyin nüvəsini təşkil edir. Enerji resurslarını sərbəst idarə etmək, gəlirləri müstəqil bölüşdürmək, tərəfdaş seçmək bunların hamısı iqtisadi azadlığın ifadəsidir. Eyni zamanda bu həm də məsuliyyət azadlığıdır. Resurslardan düzgün istifadə, bərpaolunan enerjiyə keçid, enerji səmərəliliyinin artırılması, bütün bunlar iqtisadi azadlığın etik ölçüsüdür. Bu baxımdan ekoloji azadlığa iqtisadi azadlığın təbii davamı kimi baxmaq olar.

Azərbaycanın "yaşıl enerji" siyasəti, külək, günəş, hidro potensialı iqtisadi azadlıqları gələcəyə yönəldən strateji düşüncənin nəticəsidir.

Konstitusiya iqtisadi azadlığın canlı çərçivəsini təmin edir. Müstəqillik dövrünün ən əhəmiyyətli nailiyyəti iqtisadi azadlığın Konstitusiyanın ruhuna cevrilməsidir.

Azərbaycanın suverenliyi yalnız sərhədlərin qorunması ilə məhdudlaşmır, onun əsas dayağı daxildə azad iqtisadi mühitin formalaşmasıdır. Azad sahibkar, azad bazar və azad investor müstəqil dövlətin fundamental elementləridir. Konstitusiyamız bu azadlıqları təmin edir. Ümummilli Lider Heydər Əliyev bunları yaratdı, cənab İlham Əliyev isə intellektual, ekoloji və qlobal səviyyəyə yüksəltdi. Bu gün bizə düşən vəzifə isə iqtisadi azadlıqları yalnız qanunlarda deyil, institusional davranışda, idarəetmə mədəniyyətində və ekoloji məsuliyyətdə reallaşdırmaqdır. Çünki suveren dövlət o dövlətdir ki, onun iqtisadiyyatı azad, azadlığı isə məsuliyyətli olur.

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***



# Mərkəzi Asiya ilə Avropanı birləşdirən strateji körpü

## Azərbaycan siyasi və iqtisadi diplomatiyası ilə regional və qlobal gücünü artırır

**Son** illərdə Azərbaycan Orta Asiya regionu ilə münasibətlərini daha da möhkəmləndirmək və qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək istiqamətində mühüm addımlar atmaqdadır. Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə olan strateji tərəfdaşlığı yalnız iqtisadi və ticarət sahələrində deyil, həm də təhlükəsizlik, enerji, nəqliyyat və mədəniyyət sahələrində də güclənməkdədir. Bu da, əlbəttə ki, regionda Azərbaycanın rolunun artmasına və onun beynəlxalq münasibətlərdəki mövqeyinin möhkəmlənməsinə səbəb olur.

Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Tacikistan və Özbəkistan Azərbaycan üçün mühüm regional tərəfdaşlardır. Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə olan əməkdaşlığı həm regional inkişafı dəstəkləyir, həm də hər iki tərəf üçün birgə təhlükəsizlik, iqtisadi böyümə və mədəni əlaqələrin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrinə, həmin dost ölkələrin liderlərinin Azərbaycana ardıcıl səfərləri, keçirilən görüşlər, o cümlədən qarşılıqlı səfərlər zamanı imzalanan sənədlər təkcə respublikamız və Mərkəzi Asiya ölkələri üçün deyil, həm də bütövlükdə türk dünyası üçün xüsusi əhəmiyyət kəsb edir.

Xüsusilə vurğulanmalıdır ki, Prezident İlham Əliyev son üç il ərzində Mərkəzi Asiya ölkələrinə 20-yə yaxın rəsmi səfər edib. Həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın dövlət başçılarının Azərbaycana, o cümlədən Qarabağ və Şərqi Zəngəzura çoxlu sayda rəsmi səfərləri olub.

Bu səfərlər əlaqələrimizin genişlənməsini, dərinləşməsini və strateji xarakter almasını şərtləndirir. Bu səfərlər zamanı imzalanan müqavilələr, sazişlər ölkələrimiz arasında münasibətlərin qarşıdakı dövr üçün əsas istiqamətlərini müəyyənləşdirir.

Azərbaycanın bu ölkələrlə münasibətlərinin inkişafında, xüsusilə energetika sahəsindəki əməkdaşlıq mühüm yer tutmaqdadır. Azərbaycan Mərkəzi Asiya ölkələrini Avropa və digər dünya bazarları ilə birbaşa əlaqələr qurmağa dəvət edir. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərləri, regionun energetik potensialının dünyaya çatdırılması üçün vacib nəqliyyat dəhlizləridir. Bu layihələr həmçinin Orta Asiya ölkələrinin öz enerji ehtiyatlarını dünya bazarlarına çıxarmaq üçün vacib bir platforma təqdim edir.

Ticarət əlaqələrinin daha da inkişafı üçün infrastruktur layihələri və nəqliyyat dəhlizlərinin yaradılması önəmlidir. Azərbaycanın nəqliyyat şəbəkəsi Orta Asiya ölkələrinin Qara dəniz və Avropa bazarlarına çıxışını asanlaşdırır. Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri bu əlaqələrin güclənməsində mühüm rol oynayır.

Azərbaycanın Orta Asiya ölkələri ilə təhlükəsizlik sahəsindəki əməkdaşlığı həm də regional sabitliyin təmin edilməsində mühüm yer tutur. Azərbaycanın bölgədəki strateji mövqeyi hər iki tərəfin qarşılıqlı təhlükəsizlik maraqlarını gücləndirir. Terrorizm, ekstremizm, narkotik qaçaqmalçılığı kimi təhdidlərlə mübarizə Orta Asiya ilə Azərbaycan arasında təhlükəsizlik əməkdaşlığının əsas istiqamətləridir.

Azərbaycanın təşkil etdiyi beynəlxalq tədbirlər və özünün müstəqil xarici siyasəti, regionda və dünyada sabitliyin təmin edilməsinə yönəlmiş strateji təşəbbüslər arasında yer alır. BMT, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT), Türk Dövlətləri Təşkilatı (TDT), İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) və digər beynəlxalq qurumlarla əməkdaşlıq Azərbaycan və Orta Asiya ölkələrinin dünya səviyyəsində mövqeyini daha da möhkəmləndirir.

Azərbaycanın ECO çərçivəsində qurduğu münasibətlər ölkənin həm regional, həm də beynəlxalq iqtisadi sistemdə tutduğu fəal mövqeyini aydın şəkildə nümayiş etdirir. 1992-ci ildən ECO-nun üzvü olan Azərbaycan təşkilat daxilində həyata keçirilən təşəbbüslərdə aktiv iştirak edir, üzv dövlətlərlə iqtisadiyyat, ticarət, enerji, nəqliyyat, turizm, kənd təsərrüfatı və ekologiya sahələrində əməkdaşlığın inkişafına töhfə verir.

Azərbaycanın ECO ilə əməkdaşlığı yalnız iqtisadi əlaqələrin genişləndirilməsi deyil, həm də mədəni, elmi və humanitar sahələrdə qarşılıqlı fəaliyyətin gücləndirilməsi baxımından əhəmiyyət daşıyır. Bu əməkdaşlıq ölkənin regional inteqrasiya proseslərinə daha sıx qoşulmasına və ECO məkanında sülh, sabitlik və inkişaf naminə birgə təşəbbüslərdə mühüm tərəfdaş kimi çıxış etməsinə imkan yaradır.

Bir sözlə, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə strateji tərəfdaşlığının güclənməsi həm regional inkişafı, həm də beynəlxalq arenadakı mövqeyini möhkəmləndirir. İqtisadi, təhlükəsizlik, mədəniyyət və təhsil sahələrindəki əməkdaşlığın inkişafı gələcəkdə bu əlaqələrin daha da dərinləşməsinə və qarşılıqlı faydalı münasibətlərin qurulmasına imkan verəcəkdir. Azərbaycanın Orta Asiya ilə qurduğu strateji tərəfdaşlıq yalnız regionun deyil, bütün Avrasiyanın sabitliyi və inkişafı üçün vacib bir aktor olmaqdadır.

Coğrafi və geosiyasi baxımdan mühüm mövqedə yerləşən Azərbaycan həm Avropa, həm də Mərkəzi Asiya istiqamətində fəal və balanslaşdırılmış xarici siyasət yürüdür. Belə ki, ölkəmiz Mərkəzi Asiya ilə Avropa arasında körpü rolunu oynayaraq regional və qlobal gücünü möhkəmləndirir, nəqliyyat və tranzit qovşağı kimi bölgədə əsas söz sahibinə çevrilir. Nəqliyyat sahəsində həyata keçirilən nəhəng layihələr, Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tona çatdırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması Orta dəhlizin əhəmiyyətini bir daha göstərir. Çünki Azərbaycan, Çin - Qazaxıstan - Xəzər dənizi - Azərbaycan - Gürcüstan - Türkiyə - Avropa marşrutu üzrə yerləşən Orta dəhlizin əsas hissəsidir. Bu dəhliz Şimal və Cənub dəhlizlərinə alternativ olaraq Asiya ilə Avropa arasında daha qısa və sürətli ticarət yolu təklif edir. Zəngəzur dəhlizi açılarsa, bu, Azərbaycanın Naxçıvan vasitəsilə Türkiyəyə birbaşa quru yolunu bərpa etməsinə və Asiyadan Avropaya daşımaların daha da asanlaşmasına səbəb olacaq. Artıq Azərbaycan və Ermənistan liderlərinin ABŞ-də imzaladıqları Birgə Bəyannaməyə əsasən tərəflər arasında Zəngəzur dəhlizinin (Tramp yolu) açılması məsələsi də razılığa gəlinib. Bu da o deməkdir ki, Azərbaycan Avropa və Asiya arasındakı nəqliyyat-tranzit qovşağı imkanlarını daha da genişləndirəcək.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı isə Xəzər regionunun ən böyük limanlarından biridir və Azərbaycanı Orta Asiya ölkələri ilə birləşdirən əsas tranzit mərkəzinə çevirir. Nəticə etibarilə Azərbaycanın yerləşdiyi mövqe və həyata keçirdiyi infrastruktur layihələri ölkəmizin Avrasiya qitəsində strateji tranzit və enerji mərkəzi statusunu daha da möhkəmləndirir. Azərbaycanın bu funksiyanı uğurla yerinə yetirməsi həm regional, həm də qlobal səviyyədə ölkəmizin siyasi və iqtisadi əhəmiyyətini artırır.

Ümumiyyətlə, yerləşdiyi coğrafi mövqe Azərbaycanın tranzit ölkə statusunu şərtləndirir. Bu mövqe sayəsində ölkəmiz Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa arasında yeni və daha qısa nəqliyyat dəhlizlərinin təşkili baxımından əsas halqaya çevrilib. Son illərdə Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan Orta dəhliz bu baxımdan xüsusilə əhəmiyyətlidir. Bu dəhliz Çin - Qazaxıstan - Xəzər dənizi - Azərbaycan - Gürcüstan - Türkiyə - Avropa marşrutu üzrə hərəkət edən yüklərin daha qısa zamanda və etibarlı şəkildə daşınmasına şərait yaradır. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Ələt Logistika Mərkəzi kimi iri infrastruktur layihələri Azərbaycanın bu dəhlizdəki rolunu gücləndirir.

Bundan əlavə, Azərbaycanın enerji sektorunda da körpü rolu danılmazdır. Xəzər dənizində yerləşən zəngin karbohidrogen ehtiyatları və bu ehtiyatların Avropa bazarlarına çıxarılması üçün yaradılan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və "Cənub qaz dəhlizi" ölkəmizin enerji sahəsindəki geosiyasi əhəmiyyətini göstərir. Bu layihələr sayəsində Azərbaycan təkcə öz iqtisadiyyatını gücləndirməklə kifayətlənmir, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verir.

Gələcəkdə açılması gözlənilən Zəngəzur dəhlizi isə Azərbaycanın quru yollarla həm Türkiyəyə, həm də Avropaya birbaşa çıxışını təmin edəcək. Bu dəhliz eyni zamanda Mərkəzi Asiyadan gələn yüklərin daha səmərəli şəkildə Avropaya daşınmasına imkan yaradacaq.

Beləliklə, Azərbaycan yalnız nəqliyyat və logistika baxımından deyil, həm də regional əməkdaşlığın təşviqi baxımından körpü rolunu oynamağa davam edəcək.

Nəticə etibarilə Azərbaycan Mərkəzi Asiya ilə Avropa arasında mühüm tranzit və enerji dəhlizi funksiyasını yerinə yetirərək regional sabitliyə, iqtisadi inteqrasiyaya və qlobal enerji təhlükəsizliyinə töhfə verir. Prezident İlham Əliyevin enerji siyasəti ölkəyə həm regional, həm də beynəlxalq səviyyədə siyasi güc və nüfuz qazandırır. Həmçinin Azərbaycanın müstəqil və balanslaşdırılmış xarici siyasət yürütməsinə şərait yaradır, Avropanın enerji təhlükəsizliyində əsas oyunçu kimi yer almasına imkan verir, eyni zamanda Avrasiyada effektiv əməkdaşlıq və rəqabət əlaqələrinin qurulmasına səbəb olur.

Əminliklə deyə bilərik ki, yaxın illərdə həyata keçirilməsi planlaşdırılan layihələr bu rolu daha da gücləndirəcək və Azərbaycanın Avrasiya məkanında strateji əhəmiyyətini daha da artıracaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Sülh yalnız kağız üzərində deyil...

## Bakının barış səyləri praktik şəkildə öz təsdiqini tapır

**Azərbaycanın son beş ildə yaratdığı reallıqların fonunda bölgədə bərqərar olmuş sülh mühiti qabarıq şəkildə ön plana çıxır. Onilliklər boyu adı münaqişə ocağı kimi hallanan Cənubi Qafqaz dünyanın indiki müharibələrlə, siyasi təlatümlərlə çalxalandığı dövrdə nümunə götürüləcək barışın, əməkdaşlığın bərqərar olduğu ünvan kimi tanınır. İndi qlobal sülhlə bağlı keçirilən sammitlərdə tərəqqi vəd edən sülh mühiti formalaşdırılmış regionumuzun misal çəkilməsi də bu baxımdan təbiidir. Bütün bu gerçəkliklər isə Azərbaycanın liderliyi ilə yürüdülən normallaşma prosesinin, sülh gündəliyinə sadiqliyinin parlaq nəticələridir.**



Bu ilin sentyabrında Nyu Yorkda keçirilən BMT-nin Baş Assambleyasının 80-ci sessiyasında ölkəmizin yekunda sülhə gətirib çıxaran qətiyyətli və sarsılmaz yolu barədə danışan Prezident İlham Əliyev bu mötəbər tribunadan Azərbaycanın yeni bir dövrə qədəm qoyduğunu dünyaya bəyan etdi: "Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq".

### Addım-addım sülhə doğru

İkinci Qarabağ müharibəsindən dərhal sonra Azərbaycan tərəfi sülhlə bağlı təşəbbüslərlə çıxış etməyə başlayıb, barış üçün lazım olan əməli addımlar atıb. Rəsmi Bakı iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması üçün İrəvana beynəlxalq hüququn normalarına cavab verən 5 prinsip təqdim edib. Lakin qarşı tərəfin sülh sazişinin mətninə "Dağlıq Qarabağ" məsələsini daxil etmək istəyi nəticəsində 2024-cü ilə qədər normallaşma ilə bağlı heç bir irəliləyiş əldə olunmayıb. Ancaq yenə də Bakının qətiyyətli siyasəti sayəsində Azərbaycan-Ermənistan normallaşma prosesi ötən ilin əvvəlindən etibarən müsbət istiqamətə yön aldı. Vasitəçilərə, üçüncü tərəflərə lüzum görmədən iki ölkə dialoqlara başladı, müəyyən razılaşmalar əldə edildi. Keçirilən ikitərəfli dialoqlar sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə start verilməsi, sərhəd dirəklərinin quraşdırılmasına başlanılması, Qazax rayonunun dörd kəndinin qaytarılması kimi real nəticələr ortaya qoydu. Ardınca Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin mətni ətrafında danışıqlar prosesi yekunlaşdı.

Cari ilin 10 iyul tarixində Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü isə sülh prosesində mühüm əhəmiyyət daşıdı. Sözügedən görüşdə iki ölkə arasında sülh və normallaşma istiqamətində reallaşdırılacaq məsələlərlə bağlı müzakirələr aparıldı, razılaşmalar əldə edildi. Əbu-Dabi görüşü beynəlxalq birlik tərəfindən də sülh prosesində vacib məqam kimi qiymətləndirildi.

Beləliklə, Azərbaycanın liderliyi ilə irəlilədilən sülh prosesi addım-addım 8 avqust tarixli Vaşinqton zirvəsinə yüksəldildi. Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə sülh sazişinin paraflanması və vacib razılaşmaların əldə edilməsi təkcə bölgəyə deyil, daha geniş coğrafiyaya inkişaf və əməkdaşlıq üçün geniş üfüqlər açdı.

### Vaşinqton görüşünün nailiyyətlərindən biri

Vaşinqton görüşü sülh gündəliyinin nizamlanması, normallaşma istiqamətində real nəticələrin əldə olunması istiqamətində, Cənubi Qafqazda dayanıqlı sülhə aparan yolda mühüm siyasi hadisə oldu.

Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Vaşinqton görüşünün nəticəsi olaraq Donald Trampın şahidliyi ilə Birgə Bəyannamə imzalandı. Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin və sülhün qurulmasına dair Sazişin mətni paraflandı.

Ağ Evdəki görüşdə həllini tapan məsələlərdən biri isə bölgədə kommunikasiyaların açılması ilə bağlı oldu.

20-21 oktyabr tarixlərində Qazaxıstana dövlət səfəri zamanı bu ölkənin Prezidenti Kasım-Jomart Tokayevlə birgə mətbuata bəyanatı zamanı dövlətimizin başçısı İlham Əliyev vurğuladı ki, avqustda keçirilən Vaşinqton Sammitinin nailiyyətlərindən biri TRIPP (The Trump route for international peace and prosperity) layihəsidir: "Prezident Tramp layihəyə öz adını verib və bu, layihənin mütləq reallaşdırılacağından xəbər verir. Bununla da Orta dəhlizin daha bir marşrutu açılır. Ənənəvi olanlara daha biri əlavə olunur - Zəngəzurdan ən yüksək müasir standartlarla 15 milyon ton yük dövriyyəsi. Beləliklə, Asiyadan Avropaya və əks istiqamətdə bizim ölkələrimizdən keçən yüklərin həcmi özlüyündə artım potensialına malikdir, amma həm də onların qəbulu və göndərilməsi üçün daha da böyük potensial olacaq".

### Sülh gündəliyinə sadiqliyin növbəti təzahürü

Postmünaqişə dövründə də daim sülhü təşviq edən və bu istiqamətdə səylər göstərən Azərbaycan ərazi bütövlüyünü və suverenliyini öz gücünə təmin edən ölkə olaraq bu gün hərtərəfli şəkildə sürətlə inkişaf edir, istər sosial, iqtisadi, istərsə də hərbi sahədə. Dövlətimizin qısa zaman ərzində Qarabağ və Şərqi Zəngəzurda gördüyü işlər və Böyük qayıdış proqramını uğurla həyata keçirməsi müstəsna dəyərə malikdir. Şərqlə Qərbin nəqliyyat qovşağına çevrilən Azərbaycanın ölkələrin enerji təhlükəsizliyində oynadığı vacib rol, ələlxüsus qlobal barışın əldə edilməsi üçün etdiyi vacib çağırışlar, atdığı əməli addımlar dünyada geniş rezonans doğurub və rəğbət qazanıb.

Qətiyyət və səyləri ilə Cənubi Qafqazda de-fakto sülhü bərqərar edən ölkəmiz bununla onilliklər boyu yürütdüyü işğalçılıq siyasəti ilə özünü dalan ölkəyə çevirən Ermənistanın ağır vəziyyətdən qurtulması üçün də mühüm şans yaradıb.

"Həmçinin deməliyəm ki, Azərbaycan Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranziti məhdudiyyətlərini aradan qaldırıb. Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Zənnimcə, bu həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir", - deyə oktyabrın 21-də Qazaxıstanda mətbuata bəyanatında Prezident İlham Əliyev Ermənistana tranzit məhdudiyyətlərinin aradan qaldırıldığı məlumatını verdi.

Yeri gəlmişkən, bildirək ki, ötən gün Ermənistanın baş naziri Nikol Paşinyan Tbilisidə keçirilən V Tbilisi Beynəlxalq İpək Yolu Forumunda çıxışı zamanı Prezident İlham Əliyevə Azərbaycanın Ermənistana yüklərin tranzitinə dair bütün məhdudiyyətləri aradan qaldırmasına görə təşəkkür edib: "Prezident İlham Əliyev dünən elan edib ki, Azərbaycan öz ərazisindən Ermənistana malların tranzitinə qoyulan məhdudiyyətləri aradan qaldırır. Bu, çox mühüm bəyanatdır və mən bu addımına görə Azərbaycan Prezidentinə minnətdarlığımı bildirmək istəyirəm".

Bu faktın özü də Azərbaycanın bölgədə sülhün tərəfdarı olduğunu bir daha göstərir, sülh gündəliyinə sadiqliyini növbəti dəfə təsdiqləyir. Bu həm də onun göstəricisidir ki, Bakının liderliyi ilə irəlilədilən normallaşma prosesi çox tezliklə məntiqi nəticəsinə - sülh sazişinin imzalanmasına gətirib çıxaracaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Qazaxıstan münasibətləri yüksələn xətlə inkişaf edir

Azərbaycan Mərkəzi Asiya ölkələri, o cümlədən regionun türk dövlətləri ilə münasibətlərə böyük əhəmiyyət verir. Bu baxımdan Azərbaycan və qazax xalqları arasında münasibətlərin yüksək səviyyədə olması xüsusi diqqət çəkir.



Milli Məclisin deputatı Pərvin Kərimzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfəri qarşılıqlı əlaqələrimizi daha da gücləndirəcək. Qazaxıstan Azərbaycanın sıx, tarixi əlaqələrə malik olduğu türk dövlətlərindən biridir. Türk dünyasının ümumi maraqları Azərbaycan və Qazaxıstanı ortaq məxrəcə gətirən ən mühüm amillər sırasındadır. Dost Qazaxıstan qısa müddətdə nüfuzlu beynəlxalq təşkilata çevrilən Türk Dövlətləri Təşkilatının (TDT) əsasını qoyan ölkələrdən biridir. "Qazaxıstan Mərkəzi Asiyada böyük coğrafiyaya malikdir, zəngin təbii resursları və əmək ehtiyatları ilə TDT-nin institusional qurum kimi möhkəmlənməsinə, funksionallığının artmasına, regional və qlobal proseslərə təsir imkanlarının genişlənməsinə davamlı töhfələr verir. Son üç il ərzində Prezident İlham Əliyevin Qazaxıstana yeddi, Prezident Kasım-Jomart Tokayevin isə Azərbaycana altı dəfə rəsmi səfər etmələri iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu göstərir. Bu intensiv qarşılıqlı səfərlər Azərbaycan və Qazaxıstan arasında siyasi dialoqun davamlı xarakter daşıdığını və liderlər səviyyəsində etimadın möhkəm olduğunu sübut edir", - deyə o əlavə edib.

P.Kərimzadə qeyd edib ki, ötən illər ərzində Azərbaycan və Qazaxıstan arasında təqribən 170 sənəddən ibarət hüquq-müqavilə bazası formalaşıb, siyasi, iqtisadi, investisiya və mədəni-humanitar sahələrdə səmərəli əməkdaşlıq mexanizmləri yaradılıb. Xüsusilə bu il 20 illiyi qeyd edilən Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə iki ölkənin əlaqələrinin inkişafında mühüm rol oynayıb. Bu sənəd əməkdaşlığın müxtəlif sahələrdə etibarlı əsasını formalaşdıraraq son illərdə münasibətlərin daha da genişlənməsinə və dərinləşməsinə şərait yaradıb.

Deputat ötən ilin martında Qazaxıstan Prezidentinin ölkəmizə səfəri zamanı dövlət başçılarının iştirakı ilə Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclasının keçirildiyini xatırladaraq, Prezident İlham Əliyevin Astanaya budəfəki səfərində isə şuranın ikinci iclasının keçirildiyini və iclasda vacib məsələlərin müzakirə olunduğunu deyib. Prezident İlham Əliyev mətbuata bəyanatı zamanı qeyd edib ki, Ali Dövlətlərarası Şuranın ikinci iclası və Hökumətlərarası Komissiya və Ali Dövlətlərarası Şura çərçivəsində əldə olunan nəticələrin hamısı ölkələrimizin və xalqlarımızın, həmçinin qonşularımızın xeyrinədir: "Ona görə də ölkələrimiz arasında fəal qarşılıqlı fəaliyyət həm də çox ciddi geosiyasi əhəmiyyətə malikdir. Yeni nəqliyyat yolları açıldıqca, geniş Avrasiya regionu ilə bağlı layihələr həyata keçirildikcə Cənubi Qafqaz və Mərkəzi Asiya daha çox bir-birinə bağlanır və bir çox halda vahid coğrafi məkan çərçivəsində çıxış edir. Təbii ki, bütün bunlar daimi diqqət və qarşılıqlı fəaliyyəti konkret nəticələrlə zənginləşdirmək üçün dövlət başçılarının iştirakını tələb edir".

P.Kərimzadə qeyd edib ki, liderlər çıxışlarında Orta dəhlizin önəmini də vurğulayıblar. Prezident İlham Əliyev Zəngəzur dəhlizi (TRIPP) layihəsinin də böyük potensiala malik olduğunu bəyan edib. "Azərbaycan ərazisində avtomobil və dəmir yolu əlaqəsi üzrə bütün işlər gələn ilin ortalarında başa çatdırılacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də bütün bunlar analoji sürətlə həyata keçiriləcək və belə olan halda Zəngəzur dəhlizinin (TRIPP) açılışı 2028-ci ilin sonuna qədər baş verə bilər" deyən dövlət başçısı Azərbaycanın Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranzit məhdudiyyətlərini aradan qaldırdığını da vurğulayıb. Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Təbii ki, bu fakt sülh yolunda çox vacib addımdır. "Qazaxıstan Prezidenti isə Azərbaycan Prezidentinin dövlət səfərini ölkələrimiz arasında strateji tərəfdaşlığın və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi yolunda çox mühüm hadisə kimi dəyərləndirib. Qazax xalqı Vətən müharibəsi zamanı Azərbaycana birmənalı dəstək nümayiş etdirib. İşğaldan azad olunmuş Füzuli şəhərində Qazaxıstan şirkəti tərəfindən inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi dostluğumuzun daha bir nümunəsidir. Hər iki dövlət başçısı ötən il martın 12-də bu mərkəzin açılışında iştirak ediblər. Bu mərkəz bizim dostluğumuzun və qardaşlığımızın rəmzidir", - deyə deputat əlavə edib.

O bildirib ki, Azərbaycan-Qazaxıstan münasibətləri yüksələn xətlə inkişaf edir. Bu münasibətlər nəinki ölkələrimiz, bütün türk dünyası üçün olduqca faydalıdır. Çünki bütövlükdə türk dünyasının güclənməsi prosesi gedir ki, burada ölkələrimizin arasında əməkdaşlığın davamlı olaraq genişləndirilməsi mühüm amildir. Azərbaycan Prezidentinin Qazaxıstana dövlət səfəri, səfər zamanı aparılan müzakirələr və mübadilə edilən sənədlər əlaqələrimizi daha da gücləndirəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Etimada və sülhə doğru daha bir addım

Tarixdən məlumdur ki, bütün müharibələr sülhlə yekunlaşır. Əbədi müharibə, çəkişmə, qarşıdurma yoxdur. Ən qanlı müharibələr, gərgin münaqişələr belə sonda sülhə tabe olur. Bu baxımdan Ermənistanla Azərbaycan arasında 30 ilə yaxın davam edən Qarabağ müharibəsi də istisna deyil.

İkinci Qarabağ müharibəsi Azərbaycanın Zəfəri ilə başa çatdıqdan sonra rəsmi Bakı müəyyən şərtlər əsasında sülh müqaviləsinin bağlanması ilə bağlı İrəvana təkliflər vermişdi. İlk çağlarda Azərbaycanın bu addımı Ermənistan cəmiyyətində birmənalı qarşılanmamışdı. Sülh təklifləri revanşistlərin etirazına səbəb olmuşdu. Azərbaycanın şərtlərinə etiraz etmək üçün onlar küçələrə axışdılar, xalqı mitinqlərə çağırdılar. Amma heç nəyə nail ola bilmədilər. Çünki həm haqsız, həm də məğlub idilər.

Artıq Azərbaycan və Ermənistan arasında etimad, sülh, barışıq meylləri daha güclüdür. Vətəndaş cəmiyyətləri arasında yaxınlaşma məqsədilə ilk addımlar atılmaqdadır. Bu günlər Azərbaycanın bir qrup qeyri-hökumət təşkilatı nümayəndələri Ermənistana səfər etmişlər. Bu, iki ölkə arasında aparılan danışıqların yalnız siyasi müstəvidə deyil, həm də ictimai səviyyədə dəstəklənməsinin əyani göstəricisidir. Yaxınlaşmada, barışıqda diqqətçəkən məqamlardan biri iki ölkə arasında etimad quruculuğu proseslərindən Qərb institutlarının kənarda qalmasıdır. Bu, mühüm amildir. Çünki uzun illər kənar qüvvələr, o cümlədən Qərb bu sahədə təşəbbüsü öz əlində saxlayaraq danışıqlarda, görüşlərdə öz iradəsini və tələblərini diktə edirdi. Amma indi, göründüyü kimi, Azərbaycan və Ermənistan heç bir kənar müdaxilə, vasitəçi, köməkçi olmadan etimad quruculuğu prosesini müstəqil şəkildə həyata keçirir. Heç bir ölkənin vasitəçiliyindən istifadə etməyə ehtiyac görmürlər. Vətəndaş cəmiyyəti nümayəndələri ilə başlayan ilk görüş, ilk addım və gələcəkdə nəzərdə tutulan uzunmüddətli tədbirlər prosesinin iki ölkənin birgə sülh şəraitində yaşaması zərurətindən irəli gələn amillərdən qaynaqlanır. Atılan ilk addımlar uğurlu olarsa, iki xalq arasında müəyyən yaxınlaşmalar başlaya bilər. Buna isə ehtimal böyükdür.



Ermənistanda revanşizm meylləri hələ tam sәngiməsə də, xalq müharibələrdən, qarşıdurmalardan təngə gəlib, bir daha övladlarını müharibələrdə itirmək istəmirlər. Baxmayaraq ki, revanşistlərin önündə gedən keçmiş prezidentlər Koçaryan, Sarkisyan başda olmaqla "Qarabağ klanı", Rusiyadakı erməniəsilli oliqarxiya, erməni diasporu və kilsə müəyyən dərəcədə etimad quruculuğu prosesinə, sülhə mane olmağa zəif cəhd edirlər, erməni xalqı yeni müharibə haqqında deyil, daha çox öz gələcəyi, güzəranı haqqında fikirləşir. Çünki 30 ilə yaxın Azərbaycanla aparılan müharibə Ermənistanı dünyadan təcrid edib, iqtisadiyyatını çökdürüb, xalqı dilənçi gününə salıb.

Cəmiyyətlərin sülhə hazırlanması və vətəndaşlar arasında ünsiyyətin qurulması ilə etimad mühitinin möhkəmləndirilməsi istiqamətində də yüksək səviyyədə addımlar atılır. Milli Məclisin Sədri Sahibə Qafarovanın Ermənistan parlamentinin sədri Alen Simonyanla görüşü iki xalq arasında etimad quruculuğu prosesinə mühüm təkanlar verir. Bu təmas isə, şübhəsiz ki, Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-nin Prezidenti Donalt Trampın iştirakı ilə Ermənistanın baş naziri Nikol Paşinyanla avqustun 8-də Vaşinqton görüşündə start verilmiş sülh prosesinin tərkib hissəsidir.

İrəvanda Ermənistan və Azərbaycan arasında vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə görüşün keçirilməsi də sülhə doğru atılan olduqca müsbət bir addımdır. Görüş çərçivəsində Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətləri nümayəndələri ilə görüşüb. Görüşdə avqustun 8-də Vaşinqtonda əldə olunan nəticələrin əsasında formalaşan sülh gündəliyi və xalqlar arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi tədbirlərindən danışılıb. Həmçinin Cənubi Qafqazda sabit iqtisadi əməkdaşlığın inkişafı yolları və iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələri arasında birbaşa və uzunmüddətli əlaqələrin qurulması perspektivləri müzakirə edilib.

Armen Qriqoryan sülh prosesinin inkişafı üçün vətəndaş cəmiyyəti institutları arasında belə görüşlərin keçirilməsinin vacibliyini vurğulayıb. Daha sonra A.Qriqoryan iştirakçıların suallarını cavablandırıb.

Görüşdə Azərbaycanı Fərhad Məmmədov, Rusif Hüseynov, Ramil İsgəndərli, Kəmalə Məmmədova və Dilarə Əfəndiyeva, Ermənistanı isə Areq Koçinyan, Boris Navasardyan, Naira Sultanyan, Narek Minasyan və Samvel Meliksetyan təmsil ediblər.

İstər işğal dövründə, istərsə də müharibədən sonrakı zamanlarda vətəndaş cəmiyyəti institutları arasında sülhə, etimada xidmət edən belə təmaslar, görüşlər olub. Fərq ondadır ki, əvvəlki görüşlər daha çox ya beynəlxalq təşkilatların, ya da nüfuzlu ölkələrin vasitəçiliyi ilə üçüncü dövlətin ərazisində keçirilirdi. Amma budəfəki görüş heç bir vasitəçinin iştirakı olmadan münaqişə tərəflərinin biri olan Ermənistanda keçirilib. Müşahidələr onu deməyə əsas verir ki, əgər Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələri səmimi şəkildə etimad quruculuğu prosesinə maraqlı olacaqlarsa, onda keçirilən belə görüşlər gözlənilən nəticələri verəcək. Hər halda ilk addım olaraq iki ölkənin vətəndaş cəmiyyətlərinin nümayəndələri arasında bu cür görüşlərin, təmasların keçirilməsini faydalı hesab etmək olar. Çünki bu addımlar etimada və sülhə doğru atılır, sabitliyə, əmin-amanlığa xidmət edir .

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Beynəlxalq səyyahların Qarabağa və Şərqi Zəngəzura ikigünlük səfəri başa çatıb

ETIC (Extreme Traveler International Congress) klubunun rəhbəri Kolja Sporinin başçılığı ilə 8 ölkədən səyyahların Qarabağ və Şərqi Zəngəzura səfəri oktyabrın 23-də başa çatıb.





AZƏRTAC xəbər verir ki, ikigünlük səfər zamanı səyyahlar əvvəlcə Ağdamda Cümə məscidini ziyarət edib və Çörək muzeyinin dağıntılarına baxıblar. Sonra Xankəndidə Qarabağ Universitetində görüş keçirilib. Onlara universitetin fəaliyyəti və beynəlxalq əlaqələri barədə məlumat verilib.

Daha sonra Laçına gələn qonaqlar şəhərin mərkəzini gəzib, Yurd Qalereyası və "Gilabi Ceramics" Yaradıcılıq Mərkəzi ilə tanış olublar. Burada onlara şəhərin tarixi, mədəni irsi, sənətkarlıq ənənələri və müasir infrastruktur imkanları barədə məlumatlar təqdim olunub. Səyyahların səfəri oktyabrın 23-də Şuşa ziyarəti ilə davam edib.

Qonaqlar əvvəlcə Şuşa şəhərinin mərkəzində Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin heykəllərini ziyarət ediblər. Bildirilib ki, işğal zamanı ermənilər bu heykəlləri apararaq əritmək istəsələr də, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycana qaytarılıb. Daha sonra səyyahlar "Xan qızı" bulağını ziyarət edərək, şəhərin bərpa olunan su xətti və Xurşidbanu Natəvan haqqında məlumat alıblar.

Səyyahlar həmçinin Şuşa qala divarlarını və Yuxarı Gövhər ağa məscidini ziyarət ediblər. Onlara qala divarlarının tarixi, işğal dövründəki vandalizm və məscidin bərpası barədə məlumat verilib.

Sonra səyyahlar Füzuli rayonuna səfər ediblər.

Qonaqlara şəhərin işğaldan sonrakı bərpa prosesi barədə məlumat verilib. Bildirilib ki, işğal zamanı Füzuli tamamilə dağıdılıb, lakin artıq 824 ailə yeni yaşayış kompleksində məskunlaşıb. Gələcəkdə burada yeni yaşayış binaları, xəstəxana və inzibati mərkəz tikiləcək.

Səyyahlara həmçinin Kənd Horadizdə azad olunmuş ərazilərdə mina təhlükəsi barədə məlumat verilib. Qeyd olunub ki, minalar sakinlərin geri qayıtmasına mane olur.

Bildirilib ki, minaların təmizləmə prosesi müasir texnika və minaaxtaran itlər vasitəsilə aparılır.

Daha sonra qonaqlar üçün mina partladılması prosesi nümayiş etdirilib.

Beləliklə, səyyahların Qarabağ və Şərqi Zəngəzura ikigünlük səfəri başa çatıb.

# Ermənistanın əsirliyində və girovluğunda olmuş azərbaycanlıların işgəncələrə məruz qalması barədə ifadələri elan olunub

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 23-də davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Sədrlik edən Zeynal Ağayev bildirib ki, 82 nəfər zərərçəkmiş şəxs məhkəməyə ərizə ilə müraciət edərək məhkəmə prosesində iştirak edə bilməyəcəklərini, ibtidai istintaqa ifadələrinin məhkəmə prosesində tədqiq olunmasını xahiş edib.

Zərərçəkmişlərin iclasda iştirak edə bilməməsinə və ibtidai istintaqa ifadələrinin tədqiq edilməsinə etiraz edən olmayıb.

Ardınca məhkəmə iclasında üzrlü səbəbdən iştirak edə bilməyən və bununla bağlı məhkəməyə müraciət etmiş zərərçəkmiş şəxslərin ifadələri elan edilib.

Zərərçəkmiş Azad Kamal oğlu Tahirovun elan olunan ifadəsinə əsasən, o, Ermənistanın əsirliyində olarkən Maksim adlı polis əməkdaşının avtomat silahın uc hissəsi ilə onun ağzından möhkəm zərbə vurması nəticəsində dişi qırılıb. Eyni zamanda həmin Maksim barabanlı tapançaya bir güllə qoyub fırlatmaqla onunla əsir yoldaşları arasında "ruletka" oyunu oynayıb. Yəni tapançanı növbə ilə əvvəl onun, sonra Şahlar Qurbanovun başına dirəyərək tətiyi çəkib. İki halda atəş açılmayıb. Lakin Tağı Bayramovun başına tutub tətiyi çəkdikdə isə açılmış atəş nəticəsində sonuncu yerindəcə ölüb. Qətlə yetirilmiş Tağı Bayramovun meyitini Ermənistan hərbçilərinin tələbi ilə çayın kənarına aparıb orada basdırıblar.

Tağıyev Talıb Əzim oğlu ifadəsində göstərib ki, 1991-ci il aprelin 10-da Cəbrayıl rayonunun Havıslı kəndi yaxınlığında Ermənistan hərbçiləri onun, eləcə də Əsədullayev Qubad Cavad oğlunun və Məmmədov Qara Salman oğlunun olduğu "Jiquli" markalı avtomobili saxlayaraq Hadrut polis şöbəsinə aparıb və orada onlara işgəncə veriblər. Eləcə də hadisədən sonra bu fakt üzrə aparılmış araşdırmanın gedişində həmin dövrdə keçirilmiş tanınma istintaq hərəkəti zamanı ona işgəncə vermiş V.E.Martirosyan, M.Q.Konstandov və P.M.Ayriyanı tanıyıb.

Ağayev İlham Cabir oğlu elan olunan ifadəsində bildirib ki, o, 1994-cü il mayın 5-də Tərtər rayonundakı 3-cü Sovxoz adlanan ərazidə Ermənistan silahlı qüvvələri tərəfindən açılan atəş nəticəsində yaralanıb və əsir götürülüb. Təxminən bir ay Qaradağlı kəndində saxlanıldıqdan sonra onu Şuşa həbsxanasına aparıblar. Qaradağlıda saxlanıldığı müddətdə yaralarına baxılmadığından səhhəti ağırlaşıb. Bu səbəbdən onu Xankəndi Şəhər Uşaq Xəstəxanasına göndəriblər. Uşaq xəstəxanasında Ermənistan hərbçiləri tərəfindən əsir və girov götürülmüş digər azərbaycanlılar da saxlanılıb. 1994-cü il iyunun axırında onu Şuşa həbsxanasına aparıblar. Zərərçəkmiş bildirib ki, uşaq xəstəxanasında Kamo adlı nəzarətçi orada əsirləri və girovları döyürdü. Daha sonra onu Şuşaya, oradan da Xocavənd rayonunun Ağbulaq kəndinə aparıblar. Orada əsir və girovların sayı təxminən 50 nəfər olub. Ağbulaqda saxlanılan zaman da ağır işgəncələrə məruz qalıb.

Zərərçəkmiş Rəhimov Vahid Qaroğlan oğlu ifadəsində göstərib ki, 1993-cü il avqustun 28-də Qubadlı rayonunun Xanlıq kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilərkən həyat yoldaşı Fadina Qalina Gennadiyevna ilə birlikdə girov götürülüb, avtomat silahın qundağı, yumruq-təpiklə döyülərək 1 gün su anbarında, daha sonra Hadrut qəsəbəsində saxlanılıb. Onlar girovluqda saxlandığı müddət ərzində də dəfələrlə ağır işgəncələrə məruz qalıblar.

Digər zərərçəkmiş Rasim Məmmədov ifadəsində qeyd edib ki, 1993-cü ilin payızında Ermənistan silahlı qüvvələri tərəfindən atılan mərminin onun yanına düşməsi nəticəsində xəsarət alıb, huşunu itirərək yerə yıxılıb, ayıldıqda "Niva" markalı avtomobildə olduğunu və girov götürüldüyünü bilib. İki-üç həftə bilmədiyi yerdə saxlanılıb, daha sonra Ermənistanın Gorus rayon ərazisində yerləşən fermaya gətiriblər. Orada döyülüb, pis rəftara və ağır işgəncələrə məruz qalıb. Daha sonra Gümrüyə aparılıb. Orada ondan başqa adlarını unutduğu təxminən 15-20 nəfər azərbaycanlı əsir və girov da olub.

Zərərçəkmiş Abdullayev Nazim Şakir oğlu ifadəsində göstərib ki, o, 1988-1992-ci illərdə Azərbaycanın cənub su layihələşdirmə institutunda topoqraf-mühəndis işləyib. 1991-ci il noyabrın 15-də Xankəndi şəhəri ilə Şuşa şəhərinin arasında əsir götürülüb. Üç gün ərzində onu mütəmadi olaraq vəhşicəsinə döyüb, ac-susuz saxlamaqla işgəncəyə məruz qoyublar.

Zərərçəkmiş Rəhimov İlham Allahverən oğlunun ifadəsinə əsasən Xocavənd rayonunun Qaradağlı kəndinin işğalı zamanı o, Əvəz Mirzəyev, Rafiq Mustafayev, Xankişi Həsənov, Fəxrəddin Bəhramov yaralanıb, Asif Həsənov, Şahmar İbrahimov, Müseyib Nəsibov, Nəsib Rüstəmov, Yasin Rəhmənov və Hətəm Bəhramov həlak olublar.

Əhmədov Niyyət Binnət oğlu ifadəsində göstərib ki, o, 1993-cü il aprelin 18-də atası Binnət, anası Busat, bacıları Zövqiyyə, Şərqiyə, Arzu, qonşuları Zübeydə, Şamama və digərləri canlarını qurtarmaq üçün yaşadıqları Kəlbəcər rayonunun Başlıbel kəndində olan daş mağarada gizləniblər. Həmin gün Ermənistan hərbçiləri onların gizləndikləri mağaranı atəşə tutublar. Anası Busat, bacısı Zövqiyyə, habelə Gülgəs, Əhliman, Çiçək, Yaqut, Hüseyn, Məhəmməd, Aygün, Surxay və Çingiz güllə yarasından ölüblər. O, sağ qalmış və yaralanan digər qohumları girov götürülüblər. Sonra Ermənistan hərbçisi atası Binnəti güllə ilə vuraraq, qol və sinə nahiyələrindən yaralayıb. Onu və digər sağ qalan qohumlarını Xankəndi şəhərinə aparıblar. Ermənistan hərbçiləri onu və digər yaralı qohumlarını Xankəndi Şəhər Uşaq Xəstəxanasında, digərlərini isə Xankəndi şəhər uşaq bağçasında yerləşdiriblər. Orada erməni həkimləri ona heç bir ağrıkəsici dərman verməyib, əksinə, işgəncə verərək gözünün və ayağının yarasına zərbələr yetirib, çirkli bintlə sarıyıblar. Təxminən 8 ay müddətində xəstəxanada saxlanılıb. Zərərçəkmiş bildirib ki, orada nəzarətçilərin yaralı azərbaycanlı əsirlərə ağır işgəncələr verməsinə şahid olub.

Zərərçəkmiş Əliyeva Solmaz Dəmir qızı ifadəsində bildirib ki, Ermənistan hərbçiləri 1992-ci il mayın 8-də Şuşaya hücum edib. Həmin vaxt o, ailə üzvləri və qohumları ilə evlərinin zirzəmisində gizləniblər. Bir gün sonra Ermənistan hərbçiləri onu və qohumlarını girov götürüblər. Girov götürdükdən sonra avtomat silahın qundağı və təpiklə vuraraq, onları yük avtomobilinə mindirib Xankəndi şəhərində yerləşən təcridxanaya aparıblar. Orada kişiləri döydükdən sonra ayırıblar və qadınlarla uşaqları bir kameraya salıblar. Dörd gün ərzində onlara yeməyə heç nə verməyiblər. Hər gün onları ölümlə hədələyərək təhqir ediblər.

Zərərçəkmiş Məmmədov Qadir İmamqulu oğlu ifadəsində göstərib ki, o, 1993-cü il avqustun 20-də Füzuli rayonunda Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülüb. İlyarım Şuşa həbsxanasında saxlanıldıqdan sonra onu Xocavənd rayonunun Ağbulaq kəndinə aparıblar. İyirmi gündən sonra girovluqdan qaçıb və Ağcabədi rayonuna gəlib. Əsirlikdə olan zaman işgəncələrə məruz qalıb.

Xocalı sakini Əliyeva Ətrabə Əhməd qızı ifadəsində qeyd edib ki, 1992-ci il fevralın 25-də saat 23 radələrində Ermənistan hərbçiləri şəhəri atəşə tutub. O, yaxınları ilə birlikdə meşəyə gedərək Ağdam rayonu istiqamətində hərəkət edib. Yolda Ermənistan hərbçilərinin onları atəşə tutması nəticəsində bacısı Məlahətin əri Tapdıq və 8 yaşlı qızı həlak olub. Onlar ikinci dəfə atəşə tutulanda sol ayağından yaralanıb, böyük çətinliklə Ağdam rayonunun Şelli kəndinə gəliblər.

Xocalı şəhər sakini Əzizov Arif Qüdrət oğlu ifadəsində göstərib ki, 1992-ci il fevralın 26-sı saat 20 radələrinə kimi digər azərbaycanlı sakinlərlə birlikdə Xocalı şəhərində zirzəmidə gizlənib, daha sonra Naxçıvanlı kəndi istiqamətində meşəyə gediblər. Fevralın 27-də saat təxminən 8 radələrində Ermənistan hərbçiləri onları Naxçıvanlı kəndində mühasirəyə alıb girov götürüblər.

1965-ci il təvəllüdlü Xocalı şəhər sakini Vəliyev Fikrət Cavad oğlu ifadəsində qeyd edib ki, 1992-ci il fevralın 25-də gecə saatlarında şəhər dörd bir tərəfdən tank və zirehli texnikadan atəşə tutulub, evlər yandırılıb. Soyqırımı zamanı qardaşı Füzuli itkin düşüb, bacısı Sürəyya Vəliyeva, habelə Eldar və Rəfil Əhmədovlar, Ülfət Əliyev meşədə qalıb və onlardan da heç bir xəbər yoxdur.

Məhkəmə iclasında digər zərərçəkmiş şəxslərin də ifadələri elan olunub.

Məhkəmə prosesi oktyabrın 24-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

## ZƏFƏR gündəliyi 24 oktyabr 2020-ci il

# İlham ƏLİYEV: "İşğal edilmiş bütün əraziləri azad etmək üçün sona qədər gedəcəyik"

**Oktyabrın 24-də cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.**



Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun cəbhənin müəyyən istiqamətlərində döyüş fəaliyyətlərini davam etdiriblər.

### Düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb və vacib yüksəkliklər azad edilib

Cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində mütəşəkkil müqavimət göstərə bilməyən Ermənistan silahlı qüvvələri bölmələrinə atəşlə ciddi ziyan vurulub. Düşmənin silah və sursat, yanacaq ehtiyatları anbarları sıradan çıxarılıb. Bəzi istiqamətlərdə düşmən nizamsız qaydada mövqeləri tərk edərək geri çəkilib. Əhəmiyyətli kommunikasiya xətləri nəzarətə götürülüb, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb və vacib yüksəkliklər azad edilib.

### Tərtər, Bərdə, Goranboy və Naftalan atəşə tutulub



Tərtər və Bərdə rayonlarının ərazilərindəki yaşayış məntəqələrimiz düşmən tərəfindən atəşə tutulub. Xeyli sayda yaşayış evinə ciddi ziyan dəyib.

Düşmən Goranboy və Naftalan istiqamətindəki ərazilərimizi atəşə tutur.

### Qubadlı istiqamətində düşmənin döyüş təyyarəsi məhv edilib

Gündüz saatlarında cəbhənin Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib.

### Düşmənin 3 tankı, 2 sığınacağı və bölüyün 4 dayaq məntəqəsi məhv edilib

Saat 13:00-dan 15:00-dək Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) döyüş aviasiyası cəbhənin Ağdərə və Ağdam istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 3 tankını, 2 sığınacağını və bölüyün 4 dayaq məntəqəsini dəqiq aviasiya zərbələri ilə məhv edib.

Azərbaycan HHQ düşmənin hərbi infrastrukturuna hava zərbələri endirməyə davam edib.

### İlham ƏLİYEV: "Biz bu gün dayanmağa hazırıq..."

Prezident İlham Əliyev Fransanın "Figaro" qəzetinə müsahibə verib. Jurnalistin ilk sualından məqsədi bəlli olub. Fransalı müxbirin "Nəyə görə siz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hücuma keçmisiniz və bu hərbi hücumun siyasi məqsədləri nədir?" sualına cavabında Prezident deyib ki, Azərbaycan Dağlıq Qarabağa qarşı hərbi hücuma keçməyib, Ermənistan Azərbaycana qarşı hərbi hücuma keçib: "Bu hərbi hücumun ilk saatlarında bizim mülki şəxslər və hərbi qulluqçularımız arasında qurbanlarımız olub".

Prezident üç ay müddətində Ermənistan tərəfindən Azərbaycana qarşı üç hərbi təxribat törədildiyini söyləyərək işğalçının əsl məqsədini açıqlayıb və qeyd edib ki, Azərbaycan onlara yalnız adekvat cavab verib:



"Bunun nəticəsində biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin bir hissəsini azad etdik və azad etməyə davam edirik".

Müharibənin hansı şərtlərlə dayandırılmasına gəlincə isə İlham Əliyev deyib: "Biz bu gün dayanmağa hazırıq. Mən bunu oktyabrın 10-dan - Moskvada hər iki tərəf atəşkəslə bağlı razılığa gələndən bəri deyirdim. Biz danışıqlar masasına keçmək istəyirik. Lakin əfsuslar olsun ki, Ermənistan atəşkəsi kobud şəkildə pozdu və Gəncəyə hücum etdi. Oktyabrın 17-də onlar növbəti atəşkəs qüvvəyə minəndən 2 dəqiqə sonra onu pozdular. Ona görə də əgər onlar bu gün dayansalar, biz dayanarıq və qalan işlər diplomatlar tərəfindən görülər. Əgər onlar dayanmasalar, biz işğal edilmiş bütün əraziləri azad etmək üçün sona qədər gedəcəyik".

### Ermənistanın növbəti təxribat cəhdi



Azərbaycan Ordusunun bölmələrinin Laçın və Qubadlı istiqamətlərində həyata keçirdiyi əməliyyatların qarşısını almaq məqsədilə Ermənistan növbəti təxribata əl atıb. Belə ki, Ermənistanın Gorus və Qafan rayonları ərazisində, dövlət sərhədinə yaxın yerdə döyüş mövqeyi tutan düşmənin raket və artilleriya qurğuları Laçın və Qubadlı ərazilərini gizli atəşə tutub.

Qarşı tərəfin məqsədi Azərbaycan Ordusunu Ermənistan ərazisinə atəş açmağa təhrik etməkdir.

### Ağdərədə düşmənin PUA-sı məhv edilib

Saat 15:25 radələrində Ağdərə rayonu istiqamətində uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

Artilleriya bölmələrimiz düşmənə sarsıdıcı zərbələr endirib.

Azərbaycan hərbi komandanlığı döyüşlər gedən istiqamətlərdəki yaşayış məntəqələrində məskunlaşan dinc əhaliyə bir daha müraciət edərək, onların xəsarət almaması üçün hərbi obyekt və infrastrukturdan uzaq durmasını tövsiyə edib.

Eyni zamanda Azərbaycanın hərbi komandanlığı Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən aldadılaraq ölkəmizin işğal olunmuş ərazilərinə gətirilən əsgər və könüllülərə də müraciət edərək, silahı yerə qoymağı və təslim olmağı təklif edib.

### Erməni hərbçilər əsir götürülüb



Günorta saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Sünik-Zəngilan yolu istiqamətindən bölmələrimizə hücum etməyə cəhd göstərib.

Bölmələrimizin sərt müqaviməti ilə rastlaşan düşmən geri çəkilməyə məcbur edilib. Düşmən qüvvələrindən əsir götürülənlər olub.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*




# Hüquq və azadlıqlara zəmanət verən Ali Sənəd

Konstitusiya hər bir ölkədə Əsas Qanun kimi ali hüquqi qüvvəyə malikdir. Dövlətin təməl prinsiplərini, siyasi, hüquqi və iqtisadi əsaslarını təsbit edən bu ali sənəd vətəndaşların hüquq və azadlıqlarına zəmanət verir, ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirir. Bütövlükdə cəmiyyət həyatının mühüm sahələrində dövlət siyasətinin ümumi istiqamətlərini təsbit edən Konstitusiya ali hüquqi xüsusiyyətləri ilə hər bir xalqın və dövlətin həyatında xüsusi rola malikdir.




Tarixdən məlum olduğu kimi, yeni yaranan, müstəqilliyə qovuşan və ya köklü siyasi-iqtisadi dəyişikliklərin həyata keçirildiyi ölkələrdə 3 mühüm vəzifədən biri məhz dövrün tələblərinə uyğun Konstitusiyanın qəbulu olmuşdur. 1991-ci il oktyabr ayının 18-də qəbul edilən "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda ölkəmizin yeni Konstitusiyasının hazırlanması ilə bağlı müddəa öz əksini tapmışdır. Azərbaycanda yeni Konstitusiyanın qəbulu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur.

Azərbaycan Respublikasının Konstitusiya Günü - dövlətçiliyimizin hüquqi əsaslarının formalaşmasını, xalqın suveren iradəsinin təcəssümünü və müstəqil dövlət quruculuğu prosesinin mühüm mərhələsini ifadə edən tarixi bir gündür. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin siyasi, iqtisadi və sosial həyatında yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Bu sənəd Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişafının bünövrəsini təşkil etmiş, insan hüquq və azadlıqlarının təminatına yönəlmiş mütərəqqi prinsipləri ilə seçilmişdir.

Konstitusiyanın qəbul edilməsi Azərbaycan xalqının dövlətçilik iradəsinin və azad seçiminin parlaq təzahürüdür. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və xalqın müzakirəsinə təqdim edilmiş bu ali hüquqi sənəd müstəqilliyimizin hüquqi təminatını möhkəmləndirmiş, dövlət hakimiyyətinin təşkilinin, vətəndaş cəmiyyətinin qurulmasının əsas istiqamətlərini müəyyənləşdirmişdir.

Konstitusiyanın qəbulu təkcə hüquqi hadisə deyil, həm də milli ideologiyanın, demokratik dəyərlərin və vətəndaş məsuliyyətinin inkişafında dönüş nöqtəsi olmuşdur. Bu sənədin əsasında insan hüquqlarına hörmət, qanunun aliliyi, bərabərlik, dövlət suverenliyi, siyasi plüralizm və ədalət prinsipləri dayanır.

Müstəqillik və suverenlik millətlərin sahib ola biləcəyi ən qiymətli sərvətdir. Hər bir millətin müstəqillik salnaməsi və suverenlik yolu məhz onun malik olduğu dövlətçilik ənənələrindən, azadlıq düşüncəsindən, milli-mənəvi irsindən, tarixi keçmişindən və intellektual potensialından asılı olaraq əldə edilir və yaşadılır. Azərbaycan xalqı tarixboyu müstəqillik uğrunda və öz suverenliyini qorumaq üçün müxtəlif mübarizələr aparmışdır. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət mövcud olmasına baxmayaraq, xalqımızın dövlətçilik iradəsini nümayiş etdirərək öz müqəddəratını təyin etməyə qadir olduğunu sübut etmişdi. Lakin bolşevik işğalı nəticəsində bu müstəqillik və suverenlik cəmi 23 ay davam etmiş və 70 il ərzində Azərbaycan SSRİ-nin tərkibində qalmışdı.

1991-ci ildə SSRİ-nin süqutundan sonra həmin il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" ilə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etsə də, ilk illərdə ölkəmiz ciddi siyasi böhran, iqtisadi tənəzzül və çətinliklərlə üzləşmişdi. Ermənistanın hərbi təcavüzü, daxili siyasi qeyri-sabitlik və idarəetmə böhranı Azərbaycan dövlətçiliyi üçün ciddi təhlükə və təhdidlər yaratmışdı.

Respublikamızın müstəqilliyinin elan edildiyi "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nda yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, ölkədə mövcud olan ictimai-siyasi qeyri-sabitlik, qanunsuz silahlı dəstələrin özbaşınalığı, hakimiyyət uğrunda zorakılığa söykənən mübarizə, vahid siyasi iradənin olmaması, anarxiya yeni Konstitusiyanın qəbulunu mümkünsüz edirdi. Ümummilli Lider Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə yenidən qayıdışınadək Azərbaycan vətəndaş müharibəsi astanasına sürüklənmiş, milli dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üzbəüz qoyulmuşdu.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışı Azərbaycanın müstəqilliyinin qorunmasında və suveren dövlət kimi formalaşmasında həlledici rol oynadı. Dahi şəxsiyyətin əsasını qoyub həyata keçirdiyi siyasi kurs nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə etibarı gücləndirildi, beynəlxalq əlaqələr möhkəmləndirildi, ölkədə siyasi sabitlik təmin edildi, hüquqi və iqtisadi islahatlar aparıldı, hüquqi dövlət quruculuğu yolunda ən mühüm addımlardan biri atıldı - müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi.

Konstitusiyanın yaradılması ideyasının irəli sürülməsində, onun layihəsinin hazırlanmasında və qəbulunda Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Belə ki, görkəmli dövlət xadiminin hakimiyyətə qayıdışından sonra Konstitusiyanın qəbul edilməsi ön plana çəkilmişdir. 1995-ci il mayın 2-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi təsdiq edilmişdi. Komissiyanın tərkibinə tanınmış ictimai-siyasi xadimlər, alimlər, peşəkar hüquqşünaslar daxil olmuşdu. Komissiyanın sədri isə Ulu Öndər Heydər Əliyev seçilmişdi.

Ümummilli Lider yeni Konstitusiyanı son dərəcə mükəmməl bir sənəd kimi hazırlamağı tövsiyə edərək demişdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun".

Yaradılmış komissiya tərəfindən çox qısa bir müddətdə inkişaf etmiş demokratik ölkələrin konstitusion quruculuq təcrübəsi öyrənildi, təhlil olundu, Azərbaycan Respublikasının Konstitusiyasının layihəsi hazırlanıb 1995-ci il oktyabrın 15-də ictimai müzakirəyə təqdim olundu.

Beləliklə, 30 il öncə - 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək preambulasında təsbit olunmuş - Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlərlə ümumxalq səsverməsi - referendum yolu ilə ilk Milli Konstitusiyasını qəbul etmişdir.

Konstitusiya həmçinin suverenlik anlayışını əsas prinsip kimi təsbit edərək məhz ön sırada - Əsas Qanunun 2-ci maddəsində əks etdirərək, Azərbaycanın daxili və xarici siyasətdə müstəqil qərarlar qəbul etməsini təmin edən hüquqi çərçivə yaratmışdır.

Cəmiyyət inkişaf etdikcə meydana çıxan yeni ictimai münasibətlərin hüquqi tənzimi məqsədilə bir qayda olaraq qanunlar qəbul edilir. Bəzən bu, Konstitusiyaya əlavələrin və dəyişikliklərin edilməsinə də səbəb olur. Bu zərurət daim inkişafda olan ictimai həyatın obyektiv tələblərindən doğur. Qəbulundan sonra qanunvericilik sistemini beynəlxalq standartlara uyğunlaşdırmaq üçün 2002-ci il, 2009-cu il və 2016-cı ildə keçirilmiş referendumlar vasitəsilə Konstitusiya daha da təkmilləşdirilərək ona əlavə və dəyişikliklər edilmişdir. Bu yeni müddəalar da öz növbəsində insan hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsinə, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsinə və müasirləşdirilməsinə, hüquqi islahatların daha effektiv həyata keçirilməsinə xidmət etmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın törətdiyi təxribatlara və növbəti hərbi təcavüzünə cavab olaraq torpaqlarımızın işğaldan azad olunması məqsədilə başlayan 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun rəşadəti və Prezident İlham Əliyevin qətiyyəti sayəsində qazanılan tarixi qələbə, eləcə də Azərbaycan Respublikasının konstitusiya quruluşunu bərpa etmək məqsədilə 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən, cəmi 23 saat 43 dəqiqə davam edən uğurlu lokal xarakterli antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi, beynəlxalq səviyyədə tanınan sərhədləri, Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi tam bərpa edilmişdir. Prezident İlham Əliyev Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq, 2024-cü il sentyabrın 19-da imzaladığı "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" sərəncamla hər il sentyabrın 20-nin Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilməsini qərara almışdır.

Azərbaycan xalqının Vətən müharibəsində qələbəsinin 5-ci ildönümü, müstəqil dövlət üçün əsas şərtlərdən olan suverenliyin bərpa edilməsi, 30 il əvvəl ilk Konstitusiyanın qəbulunun ölkənin müstəqillik tarixinin mühüm hadisələrindən biri kimi müstəsna əhəmiyyəti nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edildi.

Xalq olaraq biz bu əlamətdar tarixləri Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti, Ali Baş Komandanın güclü iradəsi və qəhrəman ordumuzun şücaəti sayəsində yaşayırıq.

Konstitusiya dövlətin yaddaşı, xalqın qüruru, azadlığın səsidir. Konstitusiya ili gənclərə, müəllimlərə, ziyalılara və bütün vətəndaşlara bir vəzifəni xatırladır: dövlətin qanunlarına hörmətlə yanaşmaq, ədalət duyğusunu yaşatmaq və azərbaycançılıq ideyalarına sadiq qalmaq.

Konstitusiya xalqın ruhundan doğan, dövlətin yolunu işıqlandıran ali sənəddir. Onun hər bir maddəsində azadlığın nəfəsi, ədalətin səsi, insan ləyaqətinin izləri var.

Bu sənəd yalnız hüquqi çərçivə deyil, həm də milli kimliyimizin, birliyimizin və gələcəyə inamımızın ifadəsidir.

***Aynur ƏLİYEVA,***
***"Göy qurşağı" uşaq jurnalının redaktoru***

# Türk Dünyası Tədqiqat İnstitutları və Arxeologiya Mərkəzləri Birliyinin ikinci iclası keçirilib

Anadolunun qədim şəhərlərindən biri olan Qaziantepdə Türk Akademiyasının nəzdində fəaliyyət göstərən Türk Dünyası Tədqiqat İnstitutları və Arxeologiya Mərkəzləri Birliyinin (ARICA) ikinci iclası keçirilib.

AZƏRTAC Türk Akademiyasının Mətbuat xidmətinə istinadla xəbər verir ki, iclasda Türk Akademiyasının prezidenti Şahin Mustafayev, Türk Tarix Qurumunun prezidenti Yüksel Özgen, Türkiyə Arxeologiya və Mədəni İrs İnstitutunun sədri Şaban Doğan, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Macarıstan, Monqolustan arxeologiya institutlarının rəhbərləri, həmçinin aparıcı arxeoloqlar və alimlər iştirak ediblər.

ARICA Türk Akademiyasının təşəbbüsü ilə yaradılıb və 2023-cü ildə Səmərqənddə rəsmi olaraq təsis edilib. Təşkilat birgə arxeoloji tədqiqatlar, təcrübə mübadiləsi və türk sivilizasiyası tarixinin öyrənilməsinə vahid elmi yanaşmanın inkişafı üçün beynəlxalq platformaya çevrilməyi qarşısına məqsəd qoyub.



Birliyin ilk iclası 2024-cü ildə Azərbaycanın Şuşa şəhərində keçirilib və burada birgə layihələrin inkişafı ilə bağlı əsas qərarlar qəbul edilib. İkinci tədbir Türkiyənin Qaziantep şəhərində baş tutub. Səmərqənd, Şuşa, Qaziantep şəhərlərinin seçilməsi rəmzi xarakter daşıyır. Bu şəhərlərin hər biri türk dünyasının tarixi xəritəsində mühüm əhəmiyyətə malik olmaqla yanaşı, həm də Orta Asiyadan Anadoluya qədər sivilizasiya məkanını birləşdirən qədim mədəniyyət irsinin mühafizəçisidir.

İclasın açılışında çıxış edən Türk Akademiyasının prezidenti Ş.Mustafayev qeyd edib ki, sovet dövründə türk cümhuriyyətlərində arxeoloji tədqiqatlar onların milli tarixləri, Türkiyədə isə klassik və Bizans arxeologiyası çərçivəsində aparılıb. Bunun nəticəsidir ki, türk dünyasının arxeologiyasına vahid yanaşma formalaşmayıb. O əlavə edib: "Ümumi türk arxeologiyası" konsepsiyasının nəzəri əsasını hazırlamaq lazımdır. Bu, birliyimizin əsas fəaliyyət istiqamətlərindən birinə çevrilməlidir".

İclas iştirakçıları öz ölkələrində aparılan arxeoloji qazıntıların gedişatını təfərrüatı ilə təqdim edən, sahə təcrübələrini bölüşən və əsas tədqiqatların nəticələri barədə məlumatları paylaşan məruzə və təqdimatlarla çıxış ediblər. Tədbirin yekununda türk dünyası ölkələri arasında birgə layihələrin işlənib hazırlanması və elmi əməkdaşlığın gücləndirilməsi niyyətini möhkəmləndirən Əməkdaşlıq Memorandumu imzalanıb.

Türk dünyasının arxeoloqları Ankaraya da səfər edib, burada Hacettepe Universitetinin Antropologiya laboratoriyası və HÜNİTEK laboratoriyasının işi ilə tanış olublar.

Qaziantepdə keçirilən iclasın iştirakçılarına, həmçinin Türkiyə Arxeologiya və Mədəni İrs İnstitutunun arxeometrik laboratoriyasında arxeoloji tapıntıların təhlili üzrə ən son metodlar və birgə tədqiqat layihələrinin nəticələri də təqdim olunub.

# Salyanda "Konstitusiya və Suverenlik İli" çərçivəsində tədbir keçirilib

Salyanda rayon icra hakimiyyətinin, Yeni Azərbaycan Partiyası rayon təşkilatının və rayon məhkəməsinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Ulu Öndər Heydər Əliyev ilk Milli Konstitusiyamızın memarı və məhkəmə-hüquq islahatlarının banisidir" mövzusunda tədbir keçirilib.

Tədbir Ümummilli Liderin və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və mövzuya aid videoçarxın nümayişi ilə başlayıb.

Rayon məhkəməsinin hakimləri Rüstəm Alıyev və Vəsilə Əliyeva, rayon prokurorunun köməkçisi, I dərəcəli hüquqşünas Toğrul Əhədzadə, Şəkərli kənd ümumi orta ümumtəhsil məktəbinin direktoru, Əməkdar müəllim Səlimağa Səlimli və YAP Salyan rayon təşkilatının sədr müavini Aqşin Babayev çıxış edərək bildiriblər ki, Ulu Öndər müasir, hüquqi və demokratik Azərbaycanın banisidir. Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən ilk Milli Konstitusiya dövlətimizin müstəqilliyinin və suverenliyinin möhkəmlənməsində, cəmiyyətin siyasi, iqtisadi və hüquqi əsaslarının formalaşmasında mühüm rol oynayıb. Qeyd olunub ki, 1995-ci ildə qəbul edilən Konstitusiya xalqımızın iradəsini əks etdirən, insan hüquq və azadlıqlarını təmin edən, dövlətin ali dəyərlərini qoruyan tarixi sənəddir.

Tədbirin sonunda rayon icra hakimiyyəti başçısının müavini Rəşad Cəbrayılov çıxış edərək vurğulayıb ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndərin ideyaları uğurla davam etdirilir, hüquqi dövlət və vətəndaş cəmiyyəti prinsipləri möhkəmləndirilir, insan amilinə əsaslanan idarəçilik siyasəti ölkəmizin inkişafının əsasını təşkil edir. "Dövlət başçımızın qətiyyətli və uzaqgörən siyasəti nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa edib, torpaqlarını işğaldan azad edərək tarixi ədaləti təmin edib. 44 günlük Vətən müharibəsində qazanılan Zəfər və 2023-cü ildə həyata keçirilən 23 saatlıq antiterror tədbirləri Azərbaycanın gücünü, milli birliyini və Konstitusiyada təsbit olunmuş suverenlik prinsipinin real təcəssümünü nümayiş etdirib. "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən bu kimi tədbirlər Ulu Öndər Heydər Əliyev irsinin öyrənilməsi, dövlətçilik ənənələrimizin təbliği və vətəndaşlarda hüquqi düşüncənin formalaşması baxımından mühüm əhəmiyyət daşıyır", - deyə R.Cəbrayılov çıxışını yekunlaşdırıb.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# "Üçrəngli bayrağımız: milli qürurumuzun simvolu"

Qubanın Zərdabi qəsəbə tam orta ümumtəhsil məktəbində rayon icra hakimiyyəti, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba-Xaçmaz regional bölməsi, İnsan hüquqları üzrə müvəkkilin Şimal Regional Mərkəzi və Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Üçrəngli bayrağımız: milli qürurumuzun simvolu" mövzusunda tədbir keçirilib.

Öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş həmvətənlərimizin xatirəsi yad edilib.

Çıxışlarda 5 il öncə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli ordusu tərəfindən ölkəmizin ərazi bütövlüyü və suverenliyinin təmin edildiyi diqqətə çatdırılıb. Eyni zamanda suverenliyin qorunmasında dini, mənəvi həmrəyliyin rolundan bəhs olunaraq qeyd edilib ki, Konstitusiyamızda vətəndaş hüquqları, o cümlədən dini azadlıqlar öz əksini tapmışdır. Vurğulanıb ki, dilimiz, dini inancımız, adət-ənənələrimiz, tarixən bu torpaqlarda mövcud olmuş birgəyaşayış mühiti, tolerantlıq, vətənə sevgi, şəhidlik və qazilik kimi xüsusiyyətlərimiz milli-mənəvi dəyərlərimizdir. Bu dəyərlərə sadiqlik, onları yaşatmaq, təbliğ etmək, nəsillərə sevdirmək xalqımızın gələcəyi naminə vacib və əhəmiyyətlidir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

İŞİMİZ, GÜZƏRANIMIZ

# "PeşəFest-2025" nə ilə yadda qaldı

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən "PeşəFest-2025"in Bakıda yekun tədbiri keçirilib.**



"Baku Crystal Hall"da "Peşə öyrən, gələcəyini qur!" devizi ilə keçirilən tədbirin məqsədi gənclərin və şagirdlərin peşə seçiminə dəstək olmaq, onların karyera istiqamətində doğru addım atmalarını təmin etmək olub.

Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, gənclər və idman nazirinin müavini İndira Hacıyeva, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Sadiq Əliyev, təhsil müəssisələrindən rəhbər şəxslər, yeniyetmə və gənclər iştirak ediblər.

Nazir 2022-ci ildən təşkil olunan "Peşələr festivalı"nın gənclərin düzgün peşə seçiminə və əmək bazarına hazırlıqlı daxil olmalarına dəstək məqsədi daşıdığını diqqətə çatdırıb. Nazir 160 mindən çox gəncin bu tədbirlərə qatılaraq müxtəlif peşələr üzrə əmək bazarının tələbləri, zəruri bacarıqlar və karyera imkanları barədə praktiki məlumatlar əldə etdiyini bildirib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə məşğulluq sahəsində 2018-ci ildən başlanmış islahatlar nəticəsində aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndiyini və məşğulluq xidmətlərinin yeni modelinin tətbiqinə başlandığını qeyd edib. Dövlət Məşğulluq Agentliyi tərəfindən cari ilin 9 ayında 371 min nəfərin aktiv məşğulluq tədbirləri ilə əhatə olunduğunu, onlardan 137 min nəfərin münasib işlərlə təmin edildiyini, 15,7 min nəfərin isə özünüməşğulluq proqramına cəlb olunduğuunu, 13,5 min işsiz şəxs üçün peşə hazırlığı kurslarının təşkil edildiyini diqqətə çatdırıb. Anar Əliyev cari ildə 205 min nəfərə peşəyönümü məsləhəti xidmətləri göstərildiyini qeyd edərək bildirib ki, işçi qüvvəsinin rəqabət qabiliyyətinin artırılması, əmək məhsuldarlığının yüksəldilməsi əsas hədəflərdəndir. Bu məqsədlə iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən 1500-dən çox peşə və kvalifikasiya standartı hazırlanaraq işəgötürənlərin istifadəsinə verilib.

Nazir gənclərin texnoloji yeniliklərə açıq olmasının mühüm önəm kəsb etdiyini, Dünya İqtisadi Forumunun proqnozlarına əsasən, 2027-ci ilədək işçi qüvvəsinin 44 faizinin əsas bacarıqlarında dəyişiklik baş verəcəyini, bu dəyişikliklər sırasında yumşaq və texnoloji bacarıqların ön sırada dayandığını qeyd edib.

Digər çıxışçılar gənclər üçün düzgün peşə seçiminin vacibliyini, "PeşəFest"in bu baxımdan əhəmiyyətli dəstək rolu oynadığını qeyd ediblər. Onlar gənclərin müasir əmək bazarının tələbləri, aktual peşələr üzrə zəruri bacarıqlar və karyera imkanlarına dair praktiki məlumatlara yiyələnməsində, öz maraq və bacarıqlarını aşkara çıxarmalarında bu interaktiv layihənin önəmindən bəhs ediblər. Sonra peşəkarlar ixtisaslarına uyğun təqdimatlarla çıxış edib, təmsil etdikləri peşələrin xüsusiyyətləri barədə məlumat verib, peşə seçimi ilə bağlı tövsiyələrini çatdırıblar. Festival musiqi qruplarının ifaları və iştirakçılar arasında keçirilmiş maraqlı viktorinalarla davam edib.

# 9 ayda 2,56 milyard manat

## Bu, Qarabağ və Şərqi Zəngəzurun dirçəlişi üçün təkcə dövlət büdcəsindən ayrılan vəsaitdir

**2020-ci ilin noyabrında əldə olunan tarixi qələbədən sonra Azərbaycan dövləti Qarabağın və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı işlərə başlayıb. Bu proses regionun sosial, iqtisadi və ekoloji dirçəlişini təmin edən milli prioritetə çevrilib və illərlə viran qalmış, yerlə bir olmuş doğma yurda həyatın qayıdışını simvolizə edir.**

İndi bu torpaqlarda həyat canlanır. Erməni separatçılarının dağıtdıqları şəhər və kəndlərdə yeniliyin ab-havası dolaşır. Hər tikilən ev, salınan yol bu torpaqlara ümid və sevinc gətirir. Azad edilmiş torpaqlarda məktəblər, xəstəxanalar və mədəniyyət ocaqları bərpa olunur. Minlərlə insan doğma yurduna qayıtmaq üçün gün sayır, dövlət isə onların təhlükəsiz və rahat yaşayışı üçün bütün imkanlarını səfərbər edir. Bütün bu işlər sözlə deyil, real faktlarla təsdiq olunur.

Təkcə bu ilin yanvar-sentyabr aylarında işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına dövlət büdcəsindən 2 milyard 567,5 milyon manat xərclənib. Maliyyə Nazirliyinin məlumatına görə, həmin məbləğin 2 milyard 234,8 milyon manatı infrastruktura, 291,7 milyon manatı sosial layihələrə, 41 milyon manatı isə ərazilərin minalardan təmizlənməsinə yönəldilib. Yalnız avtomobil yollarının layihələndirilməsi və tikintisinə 1 milyard 525,1 milyon manat ayrılıb.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda dağlar üzərində salınan kanat yolları bölgənin gözəlliyini dünyaya nümayiş etdirmək, azad torpaqlara turist axını gətirmək məqsədi daşıyır. Həmin layihələr sayəsində qonaqlar təbiətin qoynunda unudulmaz anlar yaşamaq, qədim tarix və mədəniyyətlə daha yaxından tanış olmaq imkanı əldə edəcək, bölgənin daha sürətli sosial-iqtisadi inkişafı təmin olunacaq.



O üzdən təsadüfi deyil ki, Şuşa, Xankəndi və Laçında bu layihələrin reallaşdırılması üçün 6,6 milyon, digər zəruri işlər üçün isə 7,6 milyon manat ayrılıb.

"Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində həyata keçirilən layihələr təkcə fiziki bərpa deyil, həm də mənəvi dirçəlişin təzahürüdür. Qarabağa və Şərqi Zəngəzura həyatın qayıdışı milli ruhun, birliyin və əzmin təntənəsidir. 30 il nəfəssiz qalan, həsrətdən çat verən torpaqlarda səpilən hər toxum, əkilən hər ağac bir ümid xəbəridir: biz doğma yurd yerlərindən bir daha ayrılmayacağıq, hər qarış torpağı yenidən canlandıracağıq. Bu canlanma isə xalqımızın tarixindən gələn gücün və iradənin əyani sübutudur. Dövlətimizin dəstəyi ilə atılan bütün addımlar gələcək nəsillər üçün sağlam və firavan həyat vəd edir. Böyük layihələr yalnız daşı daş üstə qoymaq üçün deyil ki?! O həm də itirilmiş ümidlərin qayıdışıdır.

Hər bir tikili, hər bir infrastruktur layihəsi azad edilmiş ərazilərin dirçəlişidir. Qarabağ və Şərqi Zəngəzur yalnız Azərbaycanın ərazi bütövlüyünün rəmzi deyil, həm də milli qürur və birliyin simvoludur. Biz birlikdə bu müqəddəs torpaqlarda yeni həyat qururuq. Bilirik ki, bu gün infrastruktur layihələrinə sərf olunan milyonlarla manat vəsait azad edilmiş ərazilərin enerji xətləri, su və qaz təchizatı ilə təmin olunmasına xidmət edir. Yenə faktlara müraciət edək: yeni yaşayış komplekslərinin tikintisinə 461,1 milyon, dəmir yolu xətlərinin tikintisinə 107,3 milyon, elektrik təchizatı işlərinə 48 milyon, su xətləri, kollektorlar və qurğularına 44,3 milyon, sənaye parkları və infrastruktura 27,7 milyon, geoloji kəşfiyyat işlərinə 7,1 milyon manat vəsait ayrılıb. Bu rəqəmlər sadəcə statistika deyil, Qarabağın və Şərqi Zəngəzurun gələcəyinə yönəlmiş böyük dövlət iradəsinin ifadəsi, gələcəyə qoyulmuş sərmayədir. İnfrastrukturun hərtərəfli bərpası bölgənin sosial-iqtisadi simasını dəyişir, yüz minlərlə insanın doğma yurdlarında təhlükəsiz və rahat yaşayışına zəmanət verir.

Bərpa işlərinin ən mühüm istiqamətlərindən biri də "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqidir. Bu, müasir texnologiyaların, ekoloji təmiz enerjinin və dayanıqlı inkişaf prinsiplərinin bölgədə gerçəkləşdirilməsinə geniş imkan yaradır. Qarabağ günbəgün gələcəyin müasir, "yaşıl" və innovativ məkanına çevrilir. Bu layihələr çərçivəsində "ağıllı nəqliyyat" sistemlərinin tətbiqi, su və tullantı idarəetməsinin təkmilləşdirilməsi kimi sahələrdə qabaqcıl texnologiyalar tətbiq olunur. Bu da o deməkdir ki, Qarabağ və Şərqi Zəngəzurda ekoloji cəhətdən təmiz və həyat keyfiyyəti yüksək olan yaşayış məkanları yaradılır. "Ağıllı konsepsiya"ların tətbiqi bölgənin iqtisadi inkişafını sürətləndirir, yeni iş yerləri və innovasiya mərkəzlərinin yaranmasına şərait yaradır, doğma yurd yerlərinə qayıdan gənc mütəxəssislərə burada yaşamaq və çalışmaq üçün əlavə stimul verir.

Ərazilərin minalardan təmizlənməsi üçün ayrılan vəsait isə həyatın təhlükəsizliyini bərpa edir. Çünki tikinti və qayıdış ilk növbədə təhlükəsiz torpaq üzərində mümkündür. Bütün bunlar bir daha göstərir ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası təkcə fiziki yenidənqurma deyil, həm də milli ruhun dirçəlişi, qürurun və vətənə sevginin təntənəsidir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Yeni gəmilər Orta dəhlizin yükaşırma imkanını genişləndirəcək

**Son statistik rəqəmlər Orta dəhlizlə yüklərin daşınmasının dinamikasının yüksək olduğunu göstərir. Təkcə Azərbaycan üzərindən dəmir yolu ilə cari ilin yanvar-sentyabr aylarında "Şərq-Qərb" (Orta dəhliz və ya Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) üzrə daşınan yüklərin həcmi 6 faiz artaraq 2 milyon 651 min tona çatıb.**

"AZCON Holding"dən verilən məlumatda bildirilir: "Bu dövrdə Bakı limanı vasitəsilə konteyner aşırmaları 40 faiz artaraq 77 min TEU təşkil edib. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) üzrə isə quru yolla daşınan yüklərin həcmi 70 faiz artaraq 1 milyon 019 min, tankerlə daşımalar 11 faiz artaraq 3 milyon 346 min, Xəzərdən kənar daşımalar isə 191 faiz artaraq 1,1 milyon tona yüksəlib".



Onu da qeyd edək ki, ötən il Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə yükdaşımaların həcmi 62 faiz artaraq 4,5 milyon tona çatıb. Bu il onun 5,2 milyon tona qədər artacağı proqnozlaşdırılır ki, onun da 4,2 milyon tonu marşrutda iştirak edən ölkələrdən keçəcək. Bu həcmin 2,5 milyon tonu quru yük (96 min TEU ekvivalenti), 1,7 milyon tonu neft olacaq. Ümumiyyətlə, marşrutun ötürücülük qabiliyyəti 2027-ci ilə qədər ildə 10 milyon tona çata bilər ki, bu da Azərbaycanın tranzit potensialının genişləndirilməsi və infrastruktura əlavə investisiyaların cəlb edilməsi üçün yaxşı zəmin yaradacaq.

Orta dəhlizin inkişafında Azərbaycanla yanaşı, ən çox səy göstərən ölkə Qazaxıstandır. Qardaş ölkə Çindən yükləri Xəzər dənizinin Şərq sahilinə daşınmasında və Aktau limanı ilə dəhliz üzərindən aşırılmasında önəmli rol oynayır. Qazaxıstan ölkəmizlə bərabər, dəhlizin inkişafı üçün siyasi, iqtisadi və maliyyə dəstəyi verən önəmli ölkədir.

Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfəri öncəsi "Kazinform" Agentliyinə verdiyi müsahibədə qardaş ölkənin Orta dəhlizdə işbirliyini yüksək qiymətləndirərək demişdir: "2022-ci ildə Aktauda Türkiyə, Azərbaycan və Qazaxıstan ərazilərindən keçən Orta dəhlizin inkişafı və istismarı üzrə "2022-2027-ci illər üçün Yol Xəritəsi" imzalanıb. Sənəd üç ölkənin nəqliyyat-logistika infrastrukturunun sinxron inkişafını, əməliyyatların optimallaşdırılmasını, əlavə yük axınının cəlb edilməsini, vahid tarif siyasətinin həyata keçirilməsini, logistika mərkəzləri şəbəkəsinin inkişafını və digər əsas məsələlərin həllini nəzərdə tutur".

Dövlət başçısı həmçinin qeyd etmişdir ki, Aktau və Ələt limanları vasitəsilə daşımaların səmərəliliyini artırmaq üçün infrastrukturun modernləşdirilməsi, qatarların yenilənməsi yönündə həyata keçirilən tədbirlər Orta dəhlizin Avropa ilə Asiya arasında əsas tranzit marşrutu kimi mövqeyinin möhkəmlənməsinə imkan verəcək.

Bu istiqamətdə atılan növbəti addımlardan biri də Azərbaycanda "Kazmortransflot"la "Abu Dhabi Ports" üçün konteyner gəmiləri istehsal edilməsinə qərar verilməsidir. Qərara əsasən, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) ilə yük daşımasının artmasına cavab olaraq "Baku Shipyard" tərsanəsində "Samruk-Kazyna"nın törəmə şirkəti olan "Kazmortransflot" (KMTF) və "Abu Dhabi Ports" (ADP) üçün iki konteyner gəmisi istehsal ediləcək. Bu barədə "Samruk-Kazyna" şirkətinin rəhbəri Nurlan Jakupovla Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri, AZCON Müşahidə Şurasının sədri Rəşad Nəbiyev arasında keçirilən görüşdə məlumat verilib. Məlumatda bildirilib ki, 2027-ci ilə qədər inşa ediləcək konteyner gəmiləri KMTF və ADP-nin birgə müəssisəsi olan CIMC-yə təhvil veriləcək.

Görüşdə həmçinin TBNM-in inkişafı və nəqliyyat-logistika sahəsində tərəfdaşlığın dərinləşdirilməsi məsələlərinə xüsusi diqqət ayrılıb. Qeyd olunub ki, ötən il TBNM ilə yük dövriyyəsi tarixi maksimuma - 4,5 milyon tona çatıb. Qazaxıstan yüklərinin ixrac potensialının isə ildə 10 milyon tona qədər yüksələcəyi bildirilib.

Xatırladaq ki, "Kazmortransflot" milli dəniz gəmiçilik şirkəti Birləşmiş Ərəb Əmirliklərinin "AD Ports Group" şirkəti ilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yük axınının artırılması üçün iki müasir konteyner gəmisinin inşası barədə sazişi bu ilin yanvar ayında imzalayıb. Bu çərçivədə Xəzər dənizində istifadə üçün nəzərdə tutulan, 500 TEU-dan çox yükgötürmə qabiliyyətinə malik iki müasir konteyner gəmisinin inşası planlaşdırılır. Suya oturumu az olan bu yeni gəmilər TBNM-in yük dövriyyəsini artıracaq və marşrutun keçid imkanlarını genişləndirəcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Xankəndidə "Yaşıl şəbəkə: elmi innovasiya platforması" layihəsinin açılışı olub

**Oktyabrın 23-də Xankəndidəki Qarabağ Universitetində "Yaşıl şəbəkə: elmi innovasiya platforması" layihəsinin rəsmi açılışı olub. Layihənin əsas məqsədi təhsil sistemində "yaşıl elmin" inteqrasiyasını genişləndirməklə elmi innovasiyaların inkişafına və ekoloji dayanıqlılığa töhfə verməkdir.**



Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbir Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2025-ci ildə elan etdiyi "Qarabağ və Şərqi Zəngəzurun dirçəlişi, mina və itkinlər problemi" mövzusunda qrant müsabiqəsi çərçivəsində həyata keçirilir. Layihə "Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İctimai Birliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının birgə tərəfdaşlığı ilə icra olunur. Tədbirdə Prezidentin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəliyinin və Xankəndi şəhərində Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin rəsmi şəxsləri iştirak ediblər. Tədbirdə çıxış edənlər Qarabağ və Şərqi Zəngəzurda aparılan tikinti-quruculuq işləri və "yaşıl enerji" layihələrindən danışıblar. Elm və biznes sektorunda innovasiyaya əsaslanan "yaşıl keçid"i dəstəkləyən təşəbbüs kimi layihə "Yaşıl elm" icmasının üzvlərinin şəbəkələşməsi, resurs mübadiləsi, mentorluq və təcrübə paylaşımı üçün onlayn əməkdaşlıq platformasının yaradılmasını nəzərdə tutur.

İki gün davam edəcək elmi-praktik konfransın məqsədi Qarabağ bölgəsinin ekoloji vəziyyətinə, ekoterrorizm, iqlim dəyişiklikləri, ərzaq təhlükəsizliyi, sağlamlıq və enerji problemlərinə elmi yanaşmanı təşviq etmək, həmçinin bu istiqamətdə tədqiqat və innovasiyaları dəstəkləməkdir.

Tədbir çərçivəsində, COP 29 konfransı ərəfəsində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının dəstəyi ilə hazırlanmış "İqlim dəyişikliklərinin həlli yolları: beynəlxalq əməkdaşlıq və elmi kommunikasiya" adlı nəşr Qarabağ Universitetinə hədiyyə olunub.

Konfransda iqlim dəyişiklikləri və ətraf mühitin qorunması mövzusunda maarifləndirici videomateriallar nümayiş etdirilib. Növbəti gün Türkiyə və Çin ekspertlərinin iştirakı ilə bitkilərin mühafizəsi mövzusunda müzakirələr və master-klaslar təşkil ediləcək.





# Vətən deyəndə...





**Tarix yazan oğullar**

# İşıqlı xatirələrdə yaşayan Vətənin mərd oğlu

**Həyatının ən gözəl çağlarında Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda şiddətli döyüşlərdə şücaət göstərən, sinəsini düşmən güllələrinə sipər edən oğullardan biri idi Taleh Mehdiyev. Adı mərdliyi, igidliyi, qorxmazlığı ilə doğma xalqının başını uca etmiş qəhrəmanların sırasında çəkilir.**



O, anası Gülər Mehdiyevanın həm qəhrəmanı, həm də kiçik oğlu, sonbeşiyidir. "Taleh üç oğlumun ən kiçiyi, balacam idi", - deyir.

Sonbeşiyinin uşaqlıq illərindən danışdıqca səsinə gah fərəh, gah da qüssə çökür: "Taleh körpə olanda da onunla çox danışırdım... gözlərimin içinə elə baxırdı ki, sanki məni başa düşürdü. Qardaşları - Bahadur səkkiz, İsmayıl isə yeddi yaş Talehdən böyük idilər. Əlbəttə, bütün övladlar ata-ana üçün əzizdir. Bilmirəm, uşaqlarımın ən kiçiyi olduğuna görə idi, ya nə idisə onunla bir-birimizə çox bağlı idik. Biz təkcə ana-bala deyildik, yaxın sirdaş idik. Evdə də deyirdilər ki, ana-bala sizin sirriniz, sözünüz birdi. Elə bilirdim, ona bir şey olsa, mən yaşaya bilmərəm..."

Taleh Musa oğlu Mehdiyev 2001-ci il oktyabrın 28-də Bakı şəhərində dünyaya gəlib. 2008-ci ildə Sabunçu 170 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olub. 2017-ci il həmin məktəbin 9-cu sinfini bitirib.

Anası danışır ki, Taleh uşaqlıqdan olduqca mehriban, ağıllı, dərrakəli, xeyirxah idi: "Ailəcanlı, ata-ana qədri bilən idi. Böyüklə böyük, kiçiklə kiçik idi. Taleh çox zəhmətkeş idi. Hərbi xidmətdən qabaq marketdə işləyirdi. O da artıq evə qazanc gətirirdi. Ata-anasına dayaq olmaq istəyirdi. Bir də əlindən gəldiyi, gücü yetdiyi qədər hamıya kömək etməyə çalışırdı. Böyümüşdü balam. Amma yenə hərdən uşaqlaşırdı. Hərbi xidmətə getməzdən əvvəl gördüm evin içində qardaşımın uşaqları ilə dava-dava oynayır. Gülə-gülə dedim ki, sən böyümüsən, bu gün, sabah əsgər gedəcəksən. Taleh uşaqlıqdan əsgər olmağa can atırdı. Deyirdi ki, ana, görəsən, mənə əsgər forması necə yaraşacaq?"

Talehin anası Gülər Bakının Kürdəxanı, atası Musa isə Ağdam rayonunun Çuxurməhlə kəndindəndir. Atası Birinci Qarabağ müharibəsində könüllü kimi ağır döyüşlərdə iştirak edib, yaralanıb. O, Birinci Qarabağ müharibəsinin ikinci qrup əlilidir. Taleh kiçik yaşlarından bilirdi ki, ata yurdu qəsbkar ermənilərin işğalına məruz qalıb. Atasının yalnız söhbətlərində deyil, gözlərində də Qarabağ həsrətini, düşməndən qisas almaq, torpaqlarımızı geri qaytarmaq arzusunu görmüşdü. Bəlkə də buna görə Taleh əsgər olmağı çox arzulayırdı...



Gülər Mehdiyeva koronavirus pandemiyasının yayıldığı, ciddi məhdudiyyətlər qoyulduğu vaxtlarda oğlunun həqiqi hərbi xidmətə getmək üçün hərbi komissarlıqdan çağırış gözlədiyini xatırlayır: "Taleh deyirdi ki, dostlarının hamısı hərbi xidmətdədir, tək o qalıb. 2020-ci ilin mayında mən işdən qayıdanda gördüm Talehin əlində çağırış vərəqi var. Hərbi xidmətə gedəcəyi günün səhəri son dəfə gördüm balamı. Yatmışdı. Yanında əyləşdim, saçlarına, üzünə sığal çəkdim. Gözlərini açıb gülümsədi. Soruşdu: "Nə olub, ana?" Dedim ki, bir də Allah bilir səni nə vaxt belə oxşayacağam. "Qorxma, ana, gələcəyəm, məndən nigaran qalma, bir il altı ay nədir ki... gözünü yumub açınca vaxt keçəcək", - dedi. Ancaq oğlumu oxşayanda mənim ürəyimdə elə bir hiss vardı ki, sanki onu bir də görməyəcəyəm.

Taleh Mehdiyev 2020-ci il mayın 25-də həqiqi hərbi xidmətə yollanıb. Tərtər şəhərində "N" saylı hərbi hissədə xidmətdə olub. Anası göz yaşları içində söyləyir: "Taleh arzusuna çatdı. Ancaq mən onu heç əsgər formasında görmədim. COVID-19 pandemiyası yayıldığı üçün valideynlərlə görüşə icazə verilmirdi. Taleh cəmi üç ay əsgər oldu. Əsgərliyinin dördüncü ayında şəhid oldu".

Oğlu hərbi xidmətə getdiyi gündən özünə evdə yer tapa bilməyən Gülər ana 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin başlanması xəbərini eşitdikdən sonra rahatlığını tamamilə itirib. Nigaran ana həyəcanla cəbhədən gələn xəbərləri gözləyib.

"Talehlə son dəfə sentyabrın 15-də telefonla danışdım. Axırıncı dəfə oktyabrın 1-də zəng edəndə isə atası ilə danışıb, hamımızı xəbər alıb, salam söyləyib, mənimlə danışmaq istəyib. Atası deyib ki, evdə deyil, sabah zəng elə, danışarsan. Taleh: "Dörd gün sizə zəng etməsəm, məni bu nömrədən axtararsınız", - deyəndə atası çox narahat olub. Taləhə tapşırıb ki, özünü gözlə, sən mənim əsamsan. Evin balacası idi axı Taleh. Atası ona görə belə deyirdi. Taleh atasına ondan başqa iki oğlunun da olduğuna işarə edib: "Sənin məndən başqa iki əsan da var. Burda mənim kimi o qədər oğlanlar var ki, onlar necə, mən də elə"... Dörd gün ondan zəng gözlədik... Zəng gəlmədi. Oktyabrın 7-si səhərə yaxın yuxumda gördüm ki, Taleh gəlib, yataq otağının qapısı ağzında dayanıb məni çağırır. Yanına gedirəm, deyirəm ki, nə yaxşı gəlmisən. "Gəldim ki, səni görüm, gedim...", - deyir. Xəbər alıram: "Hara gedirsən? Mən də səninlə gedirəm". Cavab verir ki, sən gəlmə, mən lazım olanda özüm gəlib səni görəcəyəm. Anam onda bir il idi vəfat etmişdi. O, Talehi çox istəyirdi. Gördüm anam da gəlib. Mənə: "Sən gəlmə, orda ona özüm baxacağam", - deyəndə etiraz etdim: "Yox, yox, gəlirəm", - dedim. Çıxıram, görürəm böyük bir xəstəxanadır. İçəri girirəm. Baxıram iki həkim dayanıb. Onlardan oğlumu xəbər alıram. Deyirlər ki, oğlunuzun ürəyi dayandı. Öz qışqırığıma yuxudan oyandım. Səhər saat 5 idi. Həyat yoldaşıma yuxumu danışmadım. Ancaq dedim ki, bəlkə zəng edəsən, Talehlə danışım?! Mənə çox erkən olduğunu söylədi: "İşə get, gələndə danışarıq", - dedi. Saat 7-də işə getdim. Axşam evə qayıdanda Talehin şəhid olduğu xəbərini eşitdim. Sonralar döyüş yoldaşları danışdılar ki, oktyabrın 7-də səhər saat 9-da döyüşə giriblər. Hələ də düşünürəm, o gün səhər zəng vursaydım, Talehlə danışa, səsini son dəfə eşidə bilərdim?"

Taleh Musa oğlu Mehdiyev İkinci Qarabağ müharibəsi zamanı Tərtər-Ağdərə bölgəsində döyüşüb. Suqovuşanda gedən ağır döyüşlərdə iştirak edib. Vətənin şücaətli, mərd oğlu 2020-ci il oktyabrın 7-də şəhid olub. Cənazəsi oktyabrın 8-də Bakıya gətirilib. Ramana qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Taleh Musa oğlu Mehdiyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən uğrunda" medalları ilə təltif edilib.

Ata yurdunu ziyarətə gedən şəhid atası Musa Mehdiyev Ağdamın Çuxurməhlə kəndində vurulmuş lövhədə qəhrəman şəhidlərin arasında oğlunun da şəklini görüb.

O oğullar ki, ata evinin işığını yandıracaqdılar, işğalçı Ermənistan silahlı qüvvələrini Qarabağ və Şərqi Zəngəzurdan birdəfəlik qovmaq, Azərbaycanın bütövlüyünü, suverenliyini təmin etmək, doğma xalqının gələcəyinin nurlu olması üçün canlarından keçdilər. Taleh Mehdiyev kimi oğullar Azərbaycan xalqının qəlbində, yaddaşında əbədi işıqlı xatirəyə döndülər.

***Zöhrə FƏRƏCOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

**Yurdu yaşadan qəhrəmanlar**

# Şəhidliyi ilə əbədi Yaşar oldu

**Ötən hər gün bizi Vətən savaşında qazanılan Zəfərin 5-ci ildönümünə yaxınlaşdırır. Və bu günlər xalqımız həmin savaşda canlarından keçən şəhidləri anır, onların həyat və döyüş yollarına nəzər salır.**



Yurdumuzun azadlığı uğrunda şəhid olan oğullarımızdan biri də zabit Yaşar Füzuli oğlu Sadıqovdur. Y.Sadıqov 10 avqust 1975-ci ildə Füzulinin Bala Bəhmənli kəndində dünyaya göz açıb. Kiçik yaşlarından hərbi sahəyə böyük maraq göstərib. Bu maraq 1991-ci ildə onu Həzi Aslanov adına Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) aparıb. Yaşar dörd il bu ali hərbi təhsil ocağında oxuyub. Bu müddət ərzində hərbin sirlərinə və döyüş vərdişlərinə dərindən yiyələnib. Necə deyərlər, zəfərlər, qələbələr qazanmaq üçün zabit kimi özünü gələcək xidmətə hazırlayıb.

1993-cü il dekabr ayının son günlərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında "Horadiz əməliyyatı" adlanan əməliyyat başlananda Yaşar kursant idi, hərbi təhsil alırdı. O, çox çalışsa da, kursant taborunun komandirinə, məktəb rəisinə doğma rayonlarının düşmən işğalından azad edilməsi uğrunda könüllü olaraq döyüşlərə getmək üçün müraciət etsə də, müsbət cavab ala bilməyib. Bundan çox təəssüflənən Yaşarı 1994-cü il yanvar ayının ilk günlərində Füzuli və Cəbrayıl rayonları istiqamətində Horadiz qəsəbəsi də daxil olmaqla 22 yaşayış məntəqəsinin işğaldan azad edilməsi xəbəri sevindirib. Amma bu uğurlu döyüşlərdə iştirak etmədiyinə görə çox təəssüflənib.



Hərbi təhsilini başa vurduqdan sonra Yaşar Sadıqov 1995-ci ildə gənc zabit kimi Azərbaycan Ordusunun sıralarında Naxçıvan Muxtar Respublikasında xidmətə başlayıb. Həmin günlər ordu quruculuğunda olduqca mühüm islahatlar həyata keçirilirdi. Yaşar da gənc zabit kimi uğurla aparılan bu quruculuq işlərində fəal iştirak edib. Buna görə də bacarığı və peşəkarlığı ilə taqım komandiri vəzifəsindən hərbi hissənin kəşfiyyat bölməsinin zabiti vəzifəsinədək yüksəlib. Nümunəvi xidməti ilə həmişə komandanlığın rəğbətini, tabeliyində olanların isə böyük sevgisini qazanıb.

2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda ilk döyüşə atılanlardan biri də zabit Yaşar Sadıqov olub. Müharibənin ilk günündə təcrübəli zabit döyüşə yollanacaq şəxsi heyəti təcili olaraq ətrafına toplayaraq onlarla dəyərli söhbətlər aparıb. Bildirib ki, İkinci Qarabağ müharibəsində biz torpaqlarımızın 30 ilə yaxın davam edən işğalına son qoymalıyıq, cəsarətlə, igidliklə vuruşmalıyıq, nəyin bahasına olursa olsun, torpaqlarımızı düşmənlərdən təmizləməli, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etməliyik.

Zabit Yaşar Sadıqov Vətən müharibəsinin ilk günlərində Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Təəssüflər olsun ki, onun döyüş yolu qısa olub. Amma bu qısa döyüş yolunda da gələcək nəsillərə nümunə olacaq böyük igidlik və qəhrəmanlıqlar göstərib. Onun rəhbərliyi altında düşmənin bir neçə strateji mövqeyi darmadağın edilib, neçə-neçə hərbi texnikası sıradan çıxarılıb. Lakin növbəti əməliyyatların birində igid zabit bir neçə cəsur silahdaşı ilə bərabər şəhid olub. Yaşar oktyabr ayının 2-də Murovdağ döyüşləri zamanı Ömər aşırımı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Uzun müddət onun nəşini döyüş meydanından çıxarmaq mümkün olmayıb. Nəhayət, 2021-ci il fevralın 26-da şəhidin döyüş bölgələrindən nəşi çıxarılaraq Bakıya gətirilib. Xocalı faciəsi qurbanlarının xatirəsinin ehtiramla qeyd olunduğu bir vaxtda İkinci Şəhidlər xiyabanında (indi - Hərbi Memorial Məzarlıq) son mənzilə yola salınıb.

Şəhidin iki övladı yadigar qalıb. Bu gün onlar atalarının qəhrəmanlığı ilə qürur duyurlar.

Ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüş əməliyyatlarında göstərdiyi şəxsi igidlik və şücaətə görə zabit Yaşar Füzuli oğlu Sadıqov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidin atası Füzuli Sadıqov həmişə oğlu ilə fəxr etdiyini, qürur duyduğunu bildirir. Deyir ki, üstündən illər keçsə də, Yaşarın ölümünə inanmır: "Elə bilirəm ki, oğlum yenə də döyüşdədir. Yenə də Murovdağın zirvəsində erməni işğalçıları ilə vuruşur, torpaqlarımızı yağılardan qoruyur. Getdiyi kimi günlərin birində də qayıdıb gələcək".

Xalqımız müstəqilliyi və suverenliyi uğrunda şəhid olan övladlarını heç vaxt unutmur, onların xatirəsini ehtiramla yad edir. Ailə üzvləri, doğmaları, döyüşçü yoldaşları Yaşar Sadıqovun məzarını tez-tez ziyarət edir, ruhuna dualar oxuyurlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# İstiqlal Muzeyində Çanaqqala döyüşləri ilə bağlı fotosərgi açılıb

**Bakı Yunus Əmrə İnstitutu və İstiqlal Muzeyinin birgə təşkilatçılığı ilə Azərbaycan Mədəniyyət Nazirliyi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, qardaş ölkənin Bakıdakı səfirliyi və Çanaqqala Döyüşləri Gelibolu Tarixi Ərazi İdarəsinin dəstəyi ilə Çanaqqala döyüşlərinin 110-cu ildönümünə həsr olunmuş "Cəbhədən fotolarla Çanaqqala döyüşləri" adlı sərgi və panel proqramı keçirilib.**




AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib, şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Əvvəlcə qonaqlar "Cəbhədən fotolarla: Çanaqqala döyüşləri" sərgisinə baxıblar. Sərgidə Çanaqqala döyüşlərinin gedişatını, əsgərlərin qəhrəmanlığını əks etdirən arxiv fotoşəkillər nümayiş olunub.

Azərbaycan İstiqlal Muzeyində keçirilən tədbir iki qardaş ölkə - Azərbaycan və Türkiyənin ortaq tarixi yaddaşını, qəhrəmanlıq ənənələrini və milli mübarizə ruhunu bir daha xatırlatmaq məqsədi daşıyır.

Tədbirdə Azərbaycan mədəniyyət nazirinin müavini Murad Hüseynov, Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün, Bakı Yunus Əmrə İnstitutunun müdiri Gökhan Seyhan, Çanaqqala Müharibələri Gelibolu Tarixi Ərazi İdarəsinin sədri İsmayıl Kaşdemir, Milli Məclisinin deputatı Tənzilə Rüstəmxanlı çıxış edərək Azərbaycan-Türkiyə əlaqələrindən və Çanaqqala savaşında qazanılmış tarixi zəfərdən bəhs ediblər.

Çıxış edənlər vurğulayıblar ki, Çanaqqala zəfəri təkcə Türkiyə xalqının deyil, bütün türk dünyasının qürur mənbəyidir. Bu döyüşlər həm qardaşlığın, həm də birliyin sarsılmaz təcəssümüdür. Bildirilib ki, Azərbaycan və Türkiyə tarix boyu bir-birinə dayaq olub, bu gün də eyni amal uğrunda birgə irəliləyirlər.

Tədbirdə həmçinin şəhidlərin xatirəsi ehtiramla yad edilib, onların qəhrəmanlığının gələcək nəsillər üçün örnək olduğu diqqətə çatdırılıb.

Sonra tədbir panel hissə ilə davam edib.

Panel proqramında Türkiyədən Çanaqqala Döyüşləri Gelibolu Tarixi Ərazi İdarəsinin planlaşdırma və layihə qrup sədri Yusuf Kartal, Azərbaycan Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Firdovsiyyə Əhmədova çıxış edərək Çanaqqala döyüşlərinin tarixi, strateji əhəmiyyəti və türk dünyasının birliyində oynadığı roldan danışıblar.

Proqram çərçivəsində iştirakçılar Çanaqqala Döyüşləri Mobil Muzeyini də ziyarət ediblər. Mobil muzeydə döyüşlərə dair orijinal fotoşəkillər, sənədlər və eksponatlar nümayiş olunur.

Çanaqqala Döyüşləri Mobil Muzeyi layihəsi 2020-ci il iyulun 2-dən etibarən fəaliyyətə başlayaraq, Türkiyənin dörd bir yanında nümayiş etdirilməyə başlayıb. Özünüzü sanki Çanaqqala müharibəsi dövründə cəbhədəymiş kimi hiss etməyiniz, o ruhu yaşamağınız və həmin günlərə bir qədər də olsa şahidlik etməyiniz məqsədilə gerçəyə mümkün qədər yaxın şəkildə canlandırılmış bu layihə müxtəlif amillər nəzərə alınaraq hazırlanıb.

Layihə çərçivəsində müharibə dövrünə aid müxtəlif materiallar, videolar və döyüş obyektləri nümayiş etdirilən bu treyler; səs effekti, ab-havası və dizaynı ilə əbədiyaşar Çanaqqala ruhunu Türkiyənin və dünyanın dörd bir tərəfinə daşımağı hədəfləyir.

Sərgi və Mobil muzey oktyabrın 25-dək Azərbaycan İstiqlal Muzeyində ziyarətçilər üçün açıq olacaq.

# Hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi və onun rəhbərlik etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində keçirilən Azərbaycan və Səudiyyə Ərəbistanı Krallığının Müdafiə nazirlikləri arasında Birgə Hərbi Komitənin görüşündə iştirak etmək məqsədilə bu ölkəyə səfər edib.

Müdafiə Nazirliyindən verilən məlumata görə, səfər çərçivəsində Azərbaycan nümayəndə heyətini Səudiyyə Ərəbistanı Krallığı Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Faiyad bin Hamed Al Rovaili qəbul edib.

Daha sonra isə Səudiyyə Ərəbistanı Krallığının Müdafiə Nazirliyinin Beynəlxalq Əməkdaşlıq Departamentinin baş direktoru general-mayor Saad bin Məhəmməd Əl-Kəsiri ilə görüş keçirilib. Görüşlərdə Azərbaycan və Səudiyyə Ərəbistanı Krallığının müdafiə qurumları arasında hərbi əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.



Yekunda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Müdafiə Nazirliyi arasında keçirilmiş Birgə Hərbi Komitənin görüşünün Protokolu" imzalanıb.

# "Rosneft" və "Lukoyl" ABŞ-nin sanksiya hədəfində

**X**əbər verildiyi kimi, ABŞ Prezidenti Donald Tramp ötən həftə özünün elan etdiyi Rusiya Prezidenti Vladimir Putinlə görüşü ləğv edib. O, bunu ABŞ Maliyyə Nazirliyinin Rusiyanın ən böyük neft şirkətləri olan "Rosneft" və "Lukoyl"a qarşı sanksiyalar tətbiq etməsi ilə demək olar ki, eyni vaxtda açıqlayıb. Səbəb ABŞ-nin fikrincə, Moskvanın Ukraynada atəşkəslə bağlı öhdəlik götürmək niyyətinin olmamasıdır.



Çərşənbə günü Ağ Evdə NATO-nun Baş katibi Mark Rutte ilə birgə mətbuat konfransı zamanı Tramp deyib: "Prezident Putinlə görüşü ləğv etdik. Lazım olan nəticəyə nail ola bilməyəcəyimizi düşündüm, ona görə də onu ləğv etdim. Görüşün faydasız olmasını istəmirəm. Vaxt itirmək istəmirəm". Amma Tramp Putinlə növbəti görüşünün gələcəkdə baş tuta biləcəyini bildirib, lakin vaxt çərçivəsini dəqiqləşdirməyib. O, təəssüflə qeyd edib ki, Rusiya Prezidenti ilə ünsiyyəti nəticəsiz qalır: "Mən hər dəfə Vladimirlə danışanda aramızda yaxşı söhbət olur, amma sonra heç nə baş vermir". Xatırladaq ki, ABŞ və Rusiya prezidentlərinin avqust ayında keçirilən görüşü heç bir real nəticə verməyib.

Trampın Putinlə görüşünün ləğvi barədə açıqlaması ABŞ Maliyyə Nazirliyinin Rusiyanın "Rosneft" və "Lukoyl" neft şirkətlərinə, eləcə də onların çoxsaylı törəmə şirkətlərinə qarşı genişmiqyaslı sanksiyaları elan etməsi eyni vaxtda baş verib. Maliyyə Nazirliyinin rəsmi nəşrinin məlumatına görə, sanksiyalar Ukraynada müharibəyə son qoymaq üçün "Rusiyanın sülh prosesinə ciddi sadiq olmaması" səbəbindən tətbiq edilir. Nazir Skott Bessentin dediyinə görə, "Prezident Putinin bu mənasız müharibəni dayandırmaqdan imtina etməsini nəzərə alaraq, ABŞ Maliyyə Nazirliyi Kremlin döyüş maşınını maliyyələşdirən Rusiyanın iki ən böyük neft şirkətinə qarşı sanksiyalar tətbiq edir". Şirkətlərin ABŞ-dəki aktivləri dondurulacaq və onlarla yeni əməliyyatlar qadağan ediləcək.

Bir həftə əvvəl Böyük Britaniya da Rusiyanın iki neft şirkətinə qarşı oxşar sanksiyalar tətbiq edib. Birləşmiş Krallığın maliyyə naziri Reyçel Rivz qərarı açıqlayarkən deyib: "Qlobal bazarlarda Rusiya neftinə yer yoxdur".

Rusiyaya qarşı niyə indi sanksiya tətbiq etmək qərarına gəldiyi ilə bağlı sualı cavablandıran Donald Tramp "Vaxtının gəldiyini düşündüm. Çoxdandır gözləyirdik" cavabını verib.

"Lukoyl" və "Rosneft" RF-nin ən böyük neft şirkətləridir və Rusiyanın neft ixracının təxminən yarısı onların öhdəsinə düşür. Ekspertlərin fikrincə, ABŞ-nin onlara qarşı sanksiyaları Rusiya iqtisadiyyatına ciddi zərbədir.

Dünən həmçinin Avropa İttifaqı ölkələri Rusiyaya qarşı 19-cu sanksiya paketini təsdiqləyib və onlar oktyabrın 23-dən qüvvəyə minib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Bəşəriyyətin ən böyük sınağı

## Qlobal iqlim dəyişikliyi okean və dənizlərə ciddi təhdiddir

**İqlim dəyişikliyi artıq gələcəyin deyil, bu günün problemidir. Qlobal istiləşmə sadəcə elmi anlayışdan çıxıb, hər gün hiss etdiyimiz reallığa çevrilib. Yer kürəsinin temperaturu yüksəldikcə qütblərdə buzlaqlar əriyir, okeanlar istiləşir, fırtınalar və quraqlıqlar isə getdikcə daha dağıdıcı hal alır.**



Bu proses bəşəriyyətin ən böyük təbii sərvəti - su və həyat mənbəyi olan okeanları ciddi təhlükə ilə üz-üzə qoyur. Artıq bu, yalnız təbiətin deyil, həm də insanların, heyvanların və bütövlükdə planetdəki həyatın gələcəyini təhdid edir.

Yerin səthinin təxminən 70 faizini əhatə edən okeanlar planetin iqlim sistemində mühüm rol oynayır. Okeanlar havanı tənzimləyir, karbon qazını udur, həyatın ritmini qoruyur. Lakin son onilliklərin müşahidələri göstərir ki, okean sularının orta temperaturu tarixdə görünməmiş səviyyəyə çatıb. Alimlərin hesablamalarına görə, son 50 ildə okeanların udduğu istilik enerjisi insan sivilizasiyasının bütün enerji istehsalından dörd dəfə çoxdur. Bu isə buzlaqların əriməsini, dəniz səviyyəsinin qalxmasını, təbii fəlakətlərin daha dağıdıcı hal almasını, bioloji müxtəlifliyin, qida və su resurslarının azalmasını sürətləndirir.

Ümumdünya Meteorologiya Təşkilatının (ÜMT) məlumatına əsasən, atmosferdəki karbon qazının səviyyəsi 2024-cü ildə rekord həddə çatıb. Bu, daha uzunmüddətli istiləşmə və ekstremal hava şəraiti ilə nəticələnib. Yeni Zelandiya ətrafında aparılan müşahidələr göstərir ki, okean sularının temperaturu qlobal orta göstəricidən 34 faiz daha sürətlə artır. 1982-2023-cü illər arasında bölgədə hər onillikdə 0,16-0,26 dərəcə yüksəlib. Bu artımın əsas səbəbi kimi Cənub qütbündəki axınların istiləşməsi göstərilir.

Tədqiqatçıların bildirdiyinə görə, okeanlar istixana qazlarının buraxdığı enerjinin 90 faizini udur. Qrenlandiyada və Antarktidada hər il təxminən bir trilyon ton qütb buzunun əriməsi dəniz səviyyəsinin qalxmasına gətirib çıxarır. Bu, sahilyanı ölkələr və adalar üçün birbaşa fəlakət təhlükəsi deməkdir.

Bu yay Sakit okeanın şimalında tarixdə ən yüksək su temperaturu qeydə alınıb. İyul-sentyabr aylarında səthin istiliyi 2022-ci ildəki rekordu 0,25 dərəcə keçib. Bu artım Aralıq dənizindən təxminən on dəfə böyük bir ərazini əhatə edib. Alimlər bildirirlər ki, əsrin sonuna qədər dünyada təxminən 3,1 dərəcə istiləşmə gözlənilir.

Daha bir narahatedici fakt da odur ki, 23 ölkədən 160 alimin hesabatına əsasən, okeanlardakı riflərin 80 faizindən çoxu ekstremal okean temperaturundan zərər çəkib. Əgər qlobal orta səth temperaturu 1,2 dərəcədən yuxarı qalxarsa, mərcan riflərinin əksəriyyəti məhv ola bilər. Halbuki riflər okean həyatının təxminən dörddəbirini dəstəkləyir. Onların yox olması milyonlarla növ canlı üçün ölüm hökmü deməkdir.

BMT və Avropa İttifaqının elmi agentliklərinin məlumatına görə, orta qlobal temperatur artıq sənayedən əvvəlki dövrə nisbətən 1,3-1,4 dərəcə artıb. Son iki il isə müşahidələr tarixində ən isti illər kimi qeyd olunub. Nəticədə dənizin isti dalğaları planetin riflərinin 84 faizinin ağarmasına, bir çoxunun isə məhv olmasına səbəb olub.

Təhlükə təkcə riflərlə məhdudlaşmır. Alimlər xəbərdarlıq edirlər ki, temperaturun daha da artması Şimali Atlantik okeanında mülayim iqlimi təmin edən əsas axının - AMOC-un pozulmasına gətirib çıxara bilər. Bu axın dayanarsa, Avropa qitəsində iqlim dəyişər, qışlar sərtləşər və təbiət tarazlığı pozular. Exeter Universitetinin ekoloqu Tim Lenton bildirir: "Təəssüf ki, iqlim və biosferdə dəyişikliklər sürətlə baş verir. Amma bəşəriyyət hələ də bu gedişi dayandıra bilər. Bunun yolu qazıntı yanacaqlarından imtina edib bərpaolunan enerjiyə keçiddən keçir".

Bu istiqamətdə müəyyən ümid işıqları da görünür. Məsələn, "Ember" qeyri-kommersiya analitik mərkəzinin məlumatına əsasən, 2025-ci ildə ilk dəfə olaraq bərpaolunan enerji mənbələri hesabına kömürdən daha çox elektrik enerjisi istehsal olunub. Bu, gələcəyə doğru atılan mühüm addımdır.

Mütəxəssislər bildirirlər ki, iqlim böhranı ilə mübarizə aparmaq və onun dağıdıcı təsirlərinin qarşısını almaq üçün 2100-cü ilədək temperatur artımını 2 dərəcənin altında saxlamaq zəruridir. Bu məqsədə çatmaq isə yalnız bir ölkənin, bir təşkilatın və ya bir fərdin işi deyil - bütün bəşəriyyətin ortaq məsuliyyətidir. Bu baxımdan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransları - COP sessiyaları mühüm əhəmiyyət kəsb edir. 2015-ci ildə Fransada keçirilmiş COP21 konfransında qəbul olunan Paris İqlim Sazişi sənayedən əvvəlki dövrə nisbətən qlobal istiləşməni 1,5 dərəcə Selsidə saxlamaq məqsədini ortaya qoyub.

Azərbaycan da bu sazişə qoşulmuş, üzərinə düşən öhdəlikləri ardıcıl şəkildə yerinə yetirən ölkələrdəndir. İqlim dəyişikliyinin fəsadlarının, istixana qazı emissiyalarının azaldılması, bərpaolunan enerji mənbələrinin və enerji səmərəliliyinin artırılması istiqamətində ölkəmiz mühüm layihələr həyata keçirir. 2024-cü ildə COP29-un Bakıda keçirilməsi isə həm diplomatik uğur, həm də Azərbaycanın dünyaya verdiyi güclü ekoloji mesaj oldu. Bu konfransda qəbul edilən qərarlar qlobal iqlim siyasətində dönüş nöqtəsi kimi qiymətləndirilir. Emissiyaların azaldılması, kömürdən imtina və bərpaolunan enerji strategiyalarına keçid istiqamətində atılan addımlar insanlığın gələcəyini müəyyənləşdirəcək.

Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarını 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmağı qarşısına məqsəd qoyub. Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji zonası"nın yaradılması da bu böyük missiyanın bir parçasıdır. Günəş, külək və su enerjisi layihələri bu bölgələri ekoloji sabitliyin və yenidənqurmanın rəmzinə çevirəcək. Bu gün hamımızın evi olan planetimizin sabahı naminə atılan hər bir addım gələcəyə dəyərli töhfədir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Xalq yazıçısı Yusif Səmədoğlunun 90 illiyi ata yurdunda qeyd edilmişdir

**Yusif Səmədoğlunun 90 illiyinin qeyd edilməsi haqqında Prezident İlham Əliyevin 4 sentyabr 2025-ci il tarixli sərəncamı dəyərli ziyalımıza dövlət səviyyəsində göstərilən ehtiramın nümunəsidir.**



Sərəncamda qeyd edildiyi kimi, Yusif Səmədoğlu XX əsr Azərbaycan nəsrinin yetirdiyi nadir istedada malik böyük simalardandır. Yüksək bədiilik nümunəsi olan dərin ictimai-mənəvi məzmunlu əsərləri, o cümlədən hekayələri, romanları və film ssenariləri ilə ədəbi prosesdə iz qoymuş yazıçının ötən əsrin 60-70-ci illərində milli nəsrin keyfiyyətcə yeni mərhələyə keçməsində xüsusi xidmətləri vardır.

Xalq yazıçısı Yusif Səmədoğlunun 90 illik yubileyi doğma Qazaxda da silsilə tədbirlərlə qeyd olunur. Bu günlər növbəti tədbir keçirilmişdir. Tədbir iştirakçıları Fəxri qazaxlılar parkında olmuş, Xalq yazıçısının büstü önünə tər qərənfillər düzərək xatirəsinə ehtiramlarını bildirmişlər.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Xalq yazıçısı Yusif Səmədoğlunun 90 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı sərəncama görə dövlət başçısına Qazax ziyalıları, rayon ictimaiyyəti adından minnətdarlığını bildirmiş, sərəncamı Yusif Səmədoğlunun timsalında bütün qazaxlı ziyalılara göstərilən ehtiramın, dərin hörmətin ifadəsi kimi qiymətləndirmişdir.

Tədbirdən sonra iştirakçılar Yusif Səmədoğlunun atası, Xalq şairi Səməd Vurğunun Yuxarı Salahlı kəndində yerləşən Poeziya Evini ziyarət etmişlər. Məlumat verilmişdir ki, Ulu Öndər Heydər Əliyev Səməd Vurğunun məşhur "Azərbaycan" şeirini çox sevir, yeri gəldikcə ona müraciət edirdi. 1976-cı ildə şairin anadan olmasının 70 illik yubileyi münasibətilə Qazaxda Səməd Vurğun Poeziya Evi də Heydər Əliyevin təşəbbüsü ilə yaradılmışdır. Ulu Öndər 1979-cu ilin sentyabrında onun açılışında iştirak etmişdir. Prezident İlham Əliyev də 2004-cü ildə Qazax rayonuna səfəri çərçivəsində Poeziya Evində olmuş, burada əsaslı təmir və yenidənqurma işlərinin aparılması barədə tapşırıq vermişdir. Dövlət başçısının tapşırığı yüksək səviyyədə icra olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## "Respublika Diaqnostika Mərkəzi" ASC-nin səhmdarlarının nəzərinə

"Respublika Diaqnostika Mərkəzi" ASC (VÖEN: 1300143511) 25.11.2025-ci il saat 10:00-da səhmdarların növbədənkənar ümumi yığıncağının keçiriləcəyini bildirir.

**Gündəlikdəki məsələ:**

1. Cəmiyyətin Baş direktorunun seçilməsi.

**Ünvan: Bakı şəhəri, Tbilisi prospekti, 147, inzibati bina, 2-ci mərtəbə.**

***Rəhbərlik***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İradə Seyfulla qızı Vəliyevanın adına verilmiş Şəhid ailəsi üzvünün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən Ceyhun Oqtay oğlu Qəhrəmanovun adına verilmiş 10.09.2023-cü il tarixli M/V № 125299 seriyalı veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin kollektivi Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Zakir Paşayevə əzizi

**NƏZAKƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarov professor Vaqif Şadlinskiyə əzizi

**NADİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Mərkəzi Seçki Komissiyasının katibi Arifə Muxtarovaya əzizi

**NÜŞABƏ KAZIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti rəisinin birinci müavini Ceyhun Şadlinskiyə əzizi

**NADİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Turab və Xəndan Əhmədovlar bacısı oğlu

**RAUFUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Nazirlər Kabinetinin şöbə müdiri Zakir Paşayevə əzizi

**NƏZAKƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4085**
**Sifariş 2162**

**Qiyməti 60 qəpik**